

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET    № 117 (7372) / Çərşənbə, 3 iyul 2019-cu il


## Prezident İlham Əliyev:

# Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq



...Son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür, məktəblər, xəstəxanalar tikilmişdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da Azərbaycan böyük yol keçmişdir.

⇧ Bax: səh. 3



## Sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər

## Müstəqil Azərbaycanın ən fəal gənc təbliğatçısı



⇨ Bax: səh. 4

⇧ Bax: səh. 5



### Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı təqdim olunub

⇧ Bax: səh. 6



### Ermənistanın yeganə qurtuluşu işğal etdiyi torpaqlardan çıxmaqdır

⇧ Bax: səh. 7



### Ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi - müasir Sədərək


11 Laura Robinson: Azərbaycanın dünya mədəni irsinin qorunmasına töhfəsi böyükdür

15 *Henok Teferra Şaul:* Azərbaycan qlobal miqyaslı tədbirlərin keçirilməsi üçün ən müasir infrastruktura malikdir

16 Pozitiv və neqativ enerji sağlamlığımıza necə təsir edir?

## Prezident İlham Əliyev belaruslu həmkarını təbrik edib



Prezident İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkoya təbrik məktubu ünvanlayıb.

Təbrikdə deyilir:

*"Hörmətli Aleksandr Qriqoryeviç. Sizi milli bayramınız - Böyük Vətən müharibəsində Belarusun alman faşist işğalçılarından azad edilməsi ilə əlamətdar olan Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.*

*Belarus həqiqətən tarixi əhəmiyyətli bu hadisənin 75-ci ildönümünü müstəqilliyin və suverenliyin möhkəmlənməsi, dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşdirilməsi və modernləşdirilməsi, dinamik və ardıcıl sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyən, firavanlaşan ölkə kimi qarşılayır.*

*Bu xoş fürsətdən istifadə edərək, Sizi ən yüksək səviyyədə təşkil olunmuş və bütün idman həvəskarları üçün əsl bayrama çevrilmiş, onlara parlaq çıxışlar və unudulmaz anlar bəxş etmiş II Avropa Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istəyirəm.*

*Bu genişmiqyaslı idman bayramı xalqlar və ölkələr arasında sülhün, etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə şərait yaradan Olimpiya hərəkatının sarsılmaz prinsiplərinə Belarusun sadiqliyini bir daha əyani şəkildə nümayiş etdirdi.*

*Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə uğurlar, qardaş Belarusun xalqına isə sülh və firavanlıq arzu edirəm".*

## Astarada yol tikintisinə 4,9 milyon manat ayrılıb



Prezident İlham Əliyev Astara rayonunun Ərçivan-Artupa-Səncərədi-Alaşa-Züngüləş avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, on beş min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ərçivan-Artupa-Səncərədi-Alaşa-Züngüləş avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə tapşırılır ki, bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

*Əli Əhmədov:*

## Bu il imzalanan fərman və sərəncamlar nəticəsində sosial həyatın yaxşılaşması ölkədə gedən inkişafın çox gözəl göstəricisidir



Bu il imzalanan fərman və sərəncamlar nəticəsində sosial həyatın yaxşılaşması ölkədə gedən inkişafın çox gözəl göstəricisidir.

Bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Milli Məlumatlandırma portalının təqdimat mərasimində deyib.

Ə.Əhmədov bildirib ki, digər sahələrdə əldə edilən nəticələr dayanıqlı inkişaf məqsədlərinə uyğunlaşdırılır: "Bu gün iqtisadi, sosial inkişaf dərəcələri DİM-lərdən irəli gələn vəzifələrə uyğunlaşdırılıb. Biz növbəti illərdə də nailiyyətləri bu vəzifələrə uyğunlaşdıracağıq".

Baş nazirin müavini bildirib ki, bu gün bəşəriyyət kövrək dövrünü yaşamaqdadır. O qeyd edib ki, bir tərəfdə iqtisadi inkişaf, texnoloji tərəqqi, ziyalılar, zənginlər, digər tərəfdə isə çətin vəziyyətdə yaşayan insanlar var: "Dünyadakı mövcud vəziyyətin dəyişdirilməsi ilə bağlı BMT layihə həyata keçirir. Məqsəd ondan ibarətdir ki, dünya fəlakətlərdən xilas edilsin".

Ə.Əhmədov qeyd edib ki, Azərbaycan bu istiqamətdə sosial fəaliyyəti layiqincə həyata keçirir: "Ölkə iqtisadiyyatı inkişaf edir. Azərbaycanda bu il əməkhaqqının artırılması ilə bağlı iki sərəncam imzalanıb. Bu, vətəndaşların sosial rifah halının yaxşılaşmasına xidmət edir".

# Prezident İlham Əliyev Aleksandr Lukaşenkoya zəng edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya telefonla zəng edib.**



Prezident İlham Əliyev Belarus Prezidentini ikinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili və Belarus idmançılarının bu yarışlarda qazandığı uğurlar münasibətilə təbrik edib. Dövlətimizin başçısı, eyni zamanda, Aleksandr Lukaşenkoya Belarus Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə təbriklərini çatdırıb, Belarus xalqına tərəqqi və firavanlıq arzulayıb.

Belarus Prezidenti Aleksandr Lukaşenko təbriklərə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

# Dost ölkələr olan Azərbaycan ilə Qazaxıstan arasındakı əlaqələr strateji xarakter daşıyır



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov iyulun 2-də Qazaxıstan Respublikasının Baş Nazirinin müavini xanım Gülşara Abdıkalıkova ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda keçirilməsinin əhəmiyyətindən danışaraq dost ölkələr olan Azərbaycan ilə Qazaxıstanın bu təşkilat çərçivəsində də fəal əməkdaşlıq etdiklərini diqqətə çatdırıb. Tarixən qardaş ölkələrimiz, xalqlarımız arasında çox sıx əlaqələrin mövcud olduğunu bildirən Baş Nazir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Qazaxıstan xalqının lideri Nursultan Nazarbayevin bu münasibətlərin möhkəmləndirilməsində mühüm xidmətlərinin olduğunu vurğulayıb. "Bizim ölkələrimiz arasında müxtəlif sahələrdə çox yaxşı əlaqələr mövcuddur. Azərbaycan və Qazaxıstan beynəlxalq təşkilatlar çərçivəsində də çox sıx əməkdaşlıq edirlər. Qazaxıstan Azərbaycanın iştirak etmədiyi təşkilatlarda, tədbirlərdə daim bizim ölkəmizin mövqeyini müdafiə edir. Hesab edirəm ki, bu, ölkələrimiz arasındakı dostluğun təzahürüdür və digər dövlətlər üçün də yaxşı nümunə ola bilər ", - deyə Novruz Məmmədov vurğulayıb.

Baş Nazir Novruz Məmmədov yüksək səviyyəli qarşılıqlı səfərlərin iki ölkə arasındakı münasibətlərin genişləndirilməsi baxımından önəmli olduğunu vurğulayaraq xanım Gülşara Abdıkalıkovanın Azərbaycana səfərinin UNESKO çərçivəsində, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Baş Nazir Qazaxıstanın ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Qazaxıstanın Baş Naziri Askar Maminin salamlarını çatdıran Gülşara Abdıkalıkova deyib ki, dost ölkələr olan Azərbaycan ilə Qazaxıstan arasındakı əlaqələr strateji xarakter daşıyır. "Bizim ölkələrimiz arasında çox səmərəli əməkdaşlıq əlaqələri var. Biz hər zaman qarşılıqlı olaraq bir-birimizin maraqlarını müdafiə edirik. Əminəm ki, bu münasibətlər gələcəkdə daha da inkişaf edəcək", - deyə Baş Nazirin müavini vurğulayıb.

Novruz Məmmədov Askar Maminə salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarının Qazaxıstanın Baş Nazirinə çatdırılmasını xahiş edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Edmond Ademi:* Azərbaycan beynəlxalq səviyyəli tədbirlərin yüksək səviyyədə təşkilində öz sözünü demiş ölkədir

UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında xarici ölkələrin və beynəlxalq təşkilatların yüksək səviyyəli rəsmiləri, irs üzrə tanınmış mütəxəssislər iştirak edir.

Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin sədri, Mədəniyyət naziri Əbülfəs Qarayev iyulun 2-də Şimali Makedoniyanın Portfelsiz Hökumət naziri Edmond Ademi ilə görüşüb.

Əbülfəs Qarayev Şimali Makedoniyanın Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında fəal iştirak etdiyini vurğulayıb. Bildirib ki, bu, Şimali Makedoniya tərəfinin ölkəsində olan mədəni irs nümunələrinə verdiyi dəyərin bariz nümunəsidir.

Nazir iki ölkə arasında mədəni sahədə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayaraq bu istiqamətdə geniş potensialın olduğunu diqqətə çatdırıb.

Edmond Ademi öz növbəsində Azərbaycanın Ümumdünya İrs Komitəsinin sessiyasına yüksək səviyyədə ev sahibliyi etdiyini bildirib. Qeyd etdi ki, Azərbaycan beynəlxalq səviyyəli tədbirlərin yüksək səviyyədə təşkilində öz sözünü demiş ölkədir.

Qonaq, həmçinin Şimali Makedoniya ərazisində yerləşən mədəni irs nümunələrinin qorunması və tanıdılması ilə bağlı UNESKO ilə daha sıx əlaqələrin inkişafına çalışdıqlarını bildirib. Söyləyib ki, ölkəsi bu sessiyadan da Şimali Makedoniya üçün uğurlu nəticələr gözləyir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər

**UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası bir daha bu reallığa işıq saldı ki, milli mənəvi dəyərlərimizin, tarixi-mədəni irsimizin qorunması və təbliği, eyni zamanda, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək olmaq dövlət siyasətimizin əsas tərkib hissələrindəndir. Bu mühüm hadisə ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişafına, eyni zamanda, əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycanın milli mənəvi dəyərlərin qorunmasına və təbliğinə verdiyi önəmdən irəli gəlir.**



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə bir daha vurğulamışdır ki, dünyanın mədəni irsinin qorunması Azərbaycan ilə UNESKO arasında əməkdaşlığın əsas istiqamətlərindən biridir. “Azərbaycanın UNESKO-nun dəyərlərinə və ideallarına bağlılığı onun milli hüdudlarından kənarda da öz təzahürünü tapır” söyləyən Mehriban Əliyeva bildirmişdir ki, son 10 ildə dünya mədəni irsinin qorunması istiqamətində fəaliyyətin coğrafiyası daha da genişlənib.

Azərbaycanla UNESKO arasında əlaqələrin bugünkü inkişaf səviyyəsinə nəzər salmadan öncə milli mənəvi, dini dəyərlərimizin, tariximizin, mədəni irsimizin qorunması istiqamətində atılan addımlara qısaca diqqət yetirək. Təbii ki, hər bir xalqın varlığı, milli kimliyi ilk növbədə milli mənəvi dəyərlərində ehtiva olunur. Əbəs yerə deyilmir ki, bir millətin, xalqın dəyərlərinin, dilinin əlindən alınması onun məhvi deməkdir. “Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik” söyləyən ulu öndər Heydər Əliyev hakimiyyətinin hər iki dövründə mədəniyyətimizin, milli mənəvi sərvətimizin qorunması istiqamətində mühüm addımlar atmış və bu çağırışı etmişdir ki, gələcəyimiz olan gənclər milli mənəvi dəyərlərimizi unutmamalı, tariximizi, ana dilimizi bilməli və qorumalıdırlar. Sovetlər dövründə xalqımız nə qədər məhrumiyyətlərlə, çətinliklərlə üzləşsə belə dininə, mənəvi dəyərlərinə sadiq qalmışdır. Ümummilli Lider Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Məhz onun mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. Dahi şəxsiyyətin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlılardan ibarət gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş İttifaqın nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.



Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra həmin dövrdə əsası qoyulan ənənələr davam etdirildi, milli mənəvi, dini dəyərlərimizin, dilimizin qorunması, tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılması yönümündə davamlı addımlar atıldı. Ulu öndər Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli “Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”, 2001-ci il 9 avqust tarixli “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” fərmanları, eyni zamanda milli mənəvi dəyərlərimizin qorunmasına xidmət edən 2001-ci il 13 avqust tarixli bəyanatı ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı, cəmiyyətin hər bir üzvünün qarşısında öz dilinə, milli mənəvi dəyərlərinə bağlılığı bir vəzifə kimi qoydu.

Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Sovetlər birliyinin dağılması ilə yaranan, dünya birliyi üçün yeni proses olsa da, çox sürətlə yayılan qlobal dəyişikliklər iqtisadi, siyasi, sosial, demoqrafik sahələrdə olduğu kimi, dini dözümlülük ənənələrinin qorunması üçün də əsl sınağa çevrildi. Bu baxımdan tarixən tolerantlıq və dözümlülük ənənələri ilə tarixən zəngin olan Azərbaycan bir çox millətlərin və dini konfessiyaların yanaşı yaşamasını təmin edən ölkə kimi nümunə göstərildi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı xalqlar və dinlərarası münasibətlərin müasir dövrün tələblərinə uyğunlaşdırılmasında mühüm rol oynadı.



Son 15 ildən artıq dövrdə ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu istiqamətdə də atılan davamlı addımlardan daha aydın görünür. Prezident İlham Əliyev bildirir ki, milli dəyərlərimizə sadiq olmalı, qloballaşma adı altında da milli mentalitetə xas olmayan keyfiyyətlər aşılanmamalıdır. Cənab İlham Əliyevin tariximizin, milli mənəvi dəyərlərimizin, dilimizin, mədəniyyətimizin qorunması istiqamətində atdığı addımlar davamlılığı ilə diqqət çəkir. Ölkəmizin ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarında daim bu məqam önə çəkilir ki, Azərbaycan xalqlar, dövlətlər arasında körpü roluna yeni əlavələr etməklə beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirir. Müasir dünyamızın əsas çağırışı olan multikultural cəmiyyətlərin formalaşmasına davamlı töhfələr vermək yönümündə Azərbaycanın əldə etdiyi uğurlar göz önündədir. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm ölkəmizdə dövlət siyasətidir.

Ermənilərin əsassız torpaq iddiası nəticəsində yaranan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində yüzlərlə tarixi və memarlıq abidəsi, muzeylər, məscidlər dağılıb, yaxud ciddi dağıntıya məruz qalıb.

Bunların fonunda bir daha bu reallıq qeyd olunub ki, qloballaşma əslində təkcə mənsub olduğun xalqın milli - mədəni irsinin deyil, bütünlükdə bəşəri dəyərlərin mənfi təsirlərdən qorunması istiqamətində nəyəsə nail olmağın özü insandan fədakarlıq, qətiyyət və dünyamızda gedən proseslərə dərindən bələd olub, layiqli qiymətləndirmək bacarığı tələb edir. Bu baxımdan Azərbaycan mədəniyyətinin, milli mənəvi sərvətlərinin qorunub saxlanılmasında, həmçinin Azərbaycan-UNESKO əlaqələrinin inkişafında böyük xidmətləri olan, ümummilli lider Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi və təbliği məqsədilə yaradılmış, Azərbaycan xalqının düşüncə sistemində xüsusi yer tutaraq ali dəyərlərə söykənən Heydər Əliyev Fondunun proqram və layihələri ilə diqqəti cəlb edir. Beynəlxalq səviyyəli dialoqlarda iştirakı ilə bəşəri dəyərlərə sadiqliyini, Azərbaycanın dünya mədəniyyətinin bir parçası olduğunu əməli fəaliyyəti ilə təsdiqləyən Mehriban xanım Əliyevanın sessiyadakı çıxışına başladığı fikirlər bir çox məqamlara, xüsusilə Azərbaycanın bu gün inkişafın hansı mərhələsində olmasına, beynəlxalq münasibətlər sistemində yeri və roluna bir daha işıq saldı: “Sizin hamınızı Bakıda- Şərq ilə Qərbin, keçmişlə gələcəyin qovuşduğu şəhərdə, zamanların və sivilizasiyaların nadir ahəngdarlığını göstərən mühitdə salamlamaqdan məmnunam.”

Bütün bu uğurlarımız Azərbaycanın müxtəlif mövzularda beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsini şərtləndirir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün ictimai-siyasi, humanitar mərkəzə çevrilib. Əvvəllər Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün bu və ya digər ölkələrə səfər etməyə böyük ehtiyac yaranırdısa, bu gün ölkəmizin hər gün, hər həftə ev sahibliyi etdiyi beynəlxalq tədbirlər bunun üçün geniş imkanlar yaradır. UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası malik olduğumuz imkanların təqdimatında əhəmiyyətli rol oynamaqla yanaşı, tariximizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə bağlılığımız fonunda dünyanın mədəni irsinin qorunmasına töhfələrimizin nümayişidir.

✍ **Yeganə Əliyeva,**
***“İki sahil”***

# Müstəqil Azərbaycanın ən fəal gənc təbliğatçısı

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çoxşaxəli fəaliyyəti gənclərimiz üçün örnəkdir



**Yazıya Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu fikirləri ilə başlamaq istərdik: "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur.**

Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir. "



Hər kəsin fəaliyyəti, keçdiyi yol, təbii ki, onun təqdimatıdır. Bu gün fəaliyyəti gənclərimiz üçün örnək olan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın müstəqil Azərbaycanın təbliğatçısı missiyasından bəhs etmək istərdik. Bir mühüm məqamı da nəzərə alsaq ki, bu gün (3 iyul) Leyla Əliyevanın doğum günüdür, qısa bir təqdimatla onun dövləti, xalqı üçün necə fədakar gənc olduğunun da portretini yaratmış olarıq.

Leyla Əliyevanın bugünkü gəncliyimizə nümunə olan həyat yoluna qısa nəzər salaq. O, Avropa Biznes Məktəbini bitirib.

2006-2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun (MQİMO) magistratura pilləsində təhsil alıb. 2010-cu ilə qədər MQİMO-da Azərbaycanlılar Klubunun sədri olub. 2007-ci il mayın 10-dan Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. 2007-ci il dekabrın 19-da Moskvada "Baku" jurnalını təsis edib. Jurnalın təsisçisi və baş redaktorudur. 2008-ci il mayın 8-dən start götürmüş "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarıdır. 2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş koordinatoru vəzifəsində çalışır. 2009-cu il aprelin 18-də Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsinə seçilib. 2011-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidentidir. 2011-ci ilin iyulunda Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub.

Bunlar Leyla Əliyevanın statuslarının sadəcə siyahısı deyil, bu siyahının arxasında dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi biri-birindən əhəmiyyətli layihələr dayanır. Bu qısa təqdimat onun gördüyü işlərin miqyasının nə qədər geniş olduğuna da işıq salır. Qeyd etdiyimiz kimi, Leyla Əliyevanın fəaliyyətində tariximizin, mədəniyyətimizin, Azərbaycan həqiqətlərinin təbliği prioritet istiqamətlərdəndir. L.Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət" kampaniyası çərçivəsində bütün dünya xalqlarına bəyan edilir ki, saxta fakt və iddialarla guya genosidə məruz qaldıqlarını sübuta yetirməyə çalışan ermənilərin təbliğatının əksinə olaraq əsl həqiqət budur ki, soyqırımına məruz qalan, torpaqları Ermənistan tərəfindən işğal olunan Azərbaycan xalqıdır. Leyla Əliyevanın təşkilatçılığı ilə keçirilən tədbirlər davamlıdır, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində ciddi səylərin nəticəsi olaraq bir çox dövlətlər Xocalı faciəsini soyqırımı kimi qəbul edib. Leyla Əliyeva xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə Dünya Azərbaycanlılarının III Qurultayında "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Leyla Əliyevanın təltiflərinə diqqət yetirdikdə onun çoxşaxəli fəaliyyəti daha aydın görünür. Ətraf mühitin mühafizəsi üzrə VII Beynəlxalq Layihə Olimpiadasının Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji mühitin qorunmasına görə" Fəxri fərmanla təltif edilib. Dünyada aclığa qarşı mübarizəyə, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılmasına, sağlam ərzaq sistemi yaradılmasına verdiyi töhfəyə görə 2015-ci ildə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri adına layiq görülüb.





Təbii ki, Leyla Əliyevanın biri-birindən uğurlu addımlarında, çoxşaxəli fəaliyyətində böyüyüb tərbiyə aldığı ailənin də rolu danılmazdır. Müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev məktəbinin davamçısı, ölkə Prezidenti İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dövlətimiz, xalqımız qarşısında xidmətlərindən daha da ruhlanaraq uğurlarımıza töhfə vermək istəyi Leyla Əliyevanın atdığı hər addımında özünü qabarıq şəkildə göstərir.

Leyla Əliyevanın fəaliyyətinin əsas istiqamətlərindən biri ətraf mühitin mühafizəsidir. Çıxışlarının birində "Bu gün ölkəmiz bir sıra təşəbbüsləri həyata keçirməklə həm özünün ekoloji vəziyyətini yaxşılaşdırmış, həm də qonşu ölkələrə bu sahədə əlindən gələn köməyi əsirgəməmişdir. Biz regionun lider ölkəsiyik və bizim ekoloji siyasətimiz birbaşa olaraq təbii ehtiyatların səmərəli istifadəsi, istehsalı və istehlakına yönəlmişdir" söyləyən Leyla Əliyeva rəhbərlik etdiyi İDEA-nın (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq İctimai Birliyi) beynəlxalq maarifləndirmə kampaniyasını yüksək dəyərləndirir. Kampaniyanın devizinə diqqət yetirsək gənclərimizə bir çağırış görərik - "Qlobal ətraf mühitin tarazlığını yaratmaq üçün gənclərin qüvvəsinin səfərbər edilməsi". İDEA təkcə Azərbaycanda deyil, bütün dünya gəncləri arasında dialoq, maarifləndirmə, liderlik və əməkdaşlığı gücləndirmək üçün dünyanın müxtəlif yerlərindən olan ətraf mühitin gənc müdafiəçiləri ilə əməkdaşlıq edir.

Çoxşaxəli fəaliyyəti ilə diqqət çəkən Leyla Əliyeva Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərinə uyğun olaraq biri-birindən önəmli layihələrin təşəbbüskarı kimi çıxış edir. Belə ki, Fond təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Təkcə cari ilin ötən dövründə həyata keçirilən tədbirlərin xronologiyasına diqqət yetirmək kifayətdir. Valideyn himayəsindən məhrum uşaqlara ailə sevincini bəxş etmək, uşaq evlərinin, internat-məktəblərin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması atılan addımların əsasında dayanır.

Bu gün Heydər Əliyev Fondunun layihələri, təşkil etdiyi tədbirlər dünya siyasətçiləri, ekspertləri, ziyalıları tərəfindən dəstəklənir, xoş sözlərlə dəyərləndirilir. Heydər Əliyev Fondunun bütün xalqlarla dostluq əlaqələrini möhkəmləndirmək istəyini gerçəkləşdirmək istiqamətində əldə etdiyi uğurlarda Leyla Əliyevanın öz payı, rolu vardır.

Bu xoş gündə Leyla Əliyevanın fəaliyyətinə qısa baxış bir daha bu fikri böyük əminliklə və fəxr hissi ilə qeyd etməyə əsas verir ki, ən böyük mükafat, dəyər xalqın sevgisidir. Gənc olmasına baxmayaraq, onun Azərbaycanımız üçün gördüyü işlərin miqyası geniş, ən əsası reallıqlarımızın təbliğinə töhfələri davamlıdır.

Bu gün dövlətimizin gənclərə diqqət və qayğısı göz önündədir. Dövlətimizin başçısı İlham Əliyev onların potensial imkanlarından maksimum istifadə etməyi qarşıya mühüm vəzifə kimi qoyur. Hazırda gənclərimizin dövlət idarəçiliyində təmsilçiliklərinin artırılması da prioritet məsələlər sırasındadır. Gənclərimiz bu diqqət və qayğını əməli fəaliyyətləri ilə cavablandırmağa, Azərbaycan həqiqətlərinin təbliğinə öz töhfələrini verməyə səy göstərirlər. Leyla Əliyeva Azərbaycanın ən fəal təbliğatçısı kimi gənclərimizi daha da ruhlandırır.

Bu gün böyük inamla qeyd edirik ki, günbəgün güclənən, qüdrətlənən Azərbaycan harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların qürur mənbəyidir. Azərbaycançılıq ideyasının təbliğində, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyində, həmrəyliyində öz payı olan Leyla Əliyevanın daim ictimaiyyət arasında olması, onlarla səmimi ünsiyyəti bizi Mehriban xanım Əliyevanın müsahibələrinin birində ona ünvanlanan "İnsanlarda hansı keyfiyyətlərə qiymət verirsiniz" sualına cavabını bir daha xatırlatmağa sövq edir. Mehriban xanım Əliyeva bildirmişdir: "Saflığı və mənliyi, səmimiliyi və xeyirxahlığı, ağlı və peşəkarlığı. Heç bir ifadədə süniliyi qəbul etmirəm. Təəssüf ki, müasir həyat quruluşu çox şeyi yox edir, insana yeni-yeni bilik, bacarıq, imkan verərək, bəzən onun mənəvi tamlığını tapdalayır. Uğurun, firavanlığın arxasınca qaçmaq, bunlara nəyin bahasına olursa olsun nail olmaq istəyi insanları tanınmaz dərəcədə dəyişir, bu da məyusluq gətirir. Düzdür, illər ötdükcə mən insanların zəifliklərinə və bir çox şeylərə daha dözümlü yanaşmağa başlamışam. Lakin özüm üçün yolverilməz saydığım şeylərə görə, başqalarını da bağışlaya bilmərəm. Xoşbəxtlikdən məni həm ailəmdə, həm də peşəkar fəaliyyətimdə yalnız parlaq, pozitiv, səmimi və xeyirxah insanlar əhatə edir. Onlarla ünsiyyət həmişə sevinc gətirir."

Təbii ki, bu fikirləri xatırlatmağımız səbəbsiz deyil. Leyla Əliyevanın belə xeyirxah, səmimi, fədakar olmasında, həyata real baxışında bir ana olaraq Mehriban xanım Əliyevanın həyat prinsiplərindən götürdüyü örnək də xüsusi rol oynayır.

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***

# Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalı təqdim olunub



**İyulun 2-də "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təşəbbüsü və BMT-nin İnkişaf Proqramının Azərbaycan üzrə nümayəndəliyinin dəstəyi ilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Milli Məlumatlandırma Portalının təqdimat mərasimi keçirilib.**

Təqdimat mərasimində Baş Nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov, Dövlət Statistika Komitəsinin sədri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üzvü Tahir Budaqov, Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai və İnkişaf Proqramının (UNDP) ölkəmizdəki rezident nümayəndəsi Alessandro Frakassetti çıxış ediblər.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli Fərmanına əsasən, Baş Nazirin müavini Əli Əhmədovun sədrliyi ilə Dövlət Statistika Komitəsi də daxil olmaqla aidiyyəti dövlət orqanlarının təmsil olunduğu Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Şuranın fəaliyyəti səmərəli təşkil edilib, bu istiqamətdə qarşıda duran vəzifələr konkretləşdirilib, 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlər və onlara dair göstəricilər, milli səviyyədə DİM-ə nail olunmasına dair icra və hesabatlıq mexanizmi müəyyənləşdirilib, ölkədə qəbul edilən dövlət proqramları və strategiyalar DİM ilə uzlaşdırılıb. Sözügedən Fərmandan irəli gələn tapşırıqlar ölkəmizdə dayanıqlı inkişaf sahəsində aparılan islahatların başlıca istiqamətləri üzrə təkanverici rol oynayır.





Məlum olduğu kimi, BMT tərəfindən dayanıqlı inkişaf sahəsində müəyyən edilmiş 17 məqsəd və 169 hədəf üzrə irəliləyişin ölçülməsi milli statistika məlumatlarına əlyetərliliyin təmin olunmasını tələb edir. Bu da öz növbəsində DİM üzrə göstəricilər barədə keyfiyyətli statistika məlumatlarının vaxtlı-vaxtında təqdim edilməsi sahəsində milli innovativ təşəbbüslərin irəli sürülməsinə zəmin yaradıb. Bu baxımdan DİM üzrə əldə ediləcək nailiyyətlərin mütəmadi izlənilməsi, məlumatların müasir texnoloji vasitələrlə daha effektiv üsullarla kütləvi şəkildə istifadəçilərə çatdırılması informasiya yayımının müasir tələblər səviyyəsində təşkilinə zəmin yaradır. Bu kontekstdə statistik potensialın gücləndirilməsi əsas vəzifələrdəndir. DİM-ə nail olunması ilə əlaqədar statistik məlumatların, habelə ölkə üzrə hazırlanmış hesabatların geniş istifadəçi kütləsinə açıqlanması milli statistik məlumat bazası və internet portalın yaradılmasını qaçılmaz edib. Portalın funksional imkanları bütün maraqlı tərəflər üçün DİM üzrə milli səviyyədə şəffaf monitorinq və qiymətləndirmənin aparılmasına imkan verəcək. Bununla yanaşı, portal milli statistika sistemindən qlobal statistika sisteminə rəsmi statistika məlumatlarının ötürülməsində virtual körpü rolunu oynayacaq.

Sonra Dövlət Statistika Komitəsinin Dayanıqlı inkişaf statistikası şöbəsinin müdiri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yanında Monitorinq və qiymətləndirmə üzrə İşçi qrupun rəhbəri Rasim Səfərov Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının təqdimatını keçirib.

Azərbaycan və ingilis dillərində olan vahid milli onlayn məlumat mənbəyi DİM sahəsində maarifləndirmə, qabaqcıl təcrübələr, həyata keçirilən tədbirlər və baş verən yeniliklər barədə ictimaiyyətin, o cümlədən dövlət qurumları, özəl sektor, elm və təhsil müəssisələri, vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri, regional və beynəlxalq təşkilatların məlumatlandırılması üçün əlverişli informasiya mühiti yaradacaq. Portal vasitəsilə hər bir məqsəd, hədəf və onlara dair göstəricilər barədə ətraflı məlumatlara rahat çıxış imkanı təmin ediləcək. Bu informasiya resursundan istifadə etməklə qlobal məqsəd, hədəf və göstəricilər, DİM üzrə milli prioritetlər, mövcud hüquqi çərçivə, icra mexanizmləri, sosial, iqtisadi və ekoloji sahələrdə həyata keçirilən dövlət proqramları, strategiyalar, mühüm tədbirlər, hesabatlar, nəşrlər və elmi tədqiqat işləri ilə mütəmadi tanış olmaq olduqca əlverişlidir.

Mərasimin sonunda tədbir iştirakçılarını və KİV nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# YAP Ağdam rayon təşkilatı Gənclər Birliyinin üzvləri rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər

**Yeni Azərbaycan Partiyası (YAP) Ağdam rayon təşkilatının 1673 nəfər gənc üzvü var. Onların 349-u təhsil, 201-i səhiyyə, 97-si mədəniyyət sahələrində, 159-u idarəetmədə, 414-ü digər idarə və müəssisələrdə çalışır. Təşkilatın Gənclər Birliyinin üzvləri çalışdıqları sahələrdə, eləcə də rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə YAP Ağdam rayon təşkilatı Gənclər Birliyinin V konfransında məlumat verilib.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Quzanlı qəsəbəsindəki abidəsi önünə tər çiçəklər düzərək, xatirəsinə ehtiramlarını bildiriblər.





Tədbirdə YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Gənclər və İdman İdarəsinin rəisi Elnur Əhmədov və başqaları çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin fəaliyyətindən danışıblar. Bildirilib ki, YAP Gənclər Birliyi fəaliyyəti dövründə Azərbaycan gəncliyinin ən savadlı, intellektual, vətənpərvər nümayəndələrini ətrafında toplayaraq ölkəmizdə qazanılan uğurlarda pay sahibi olub. Sıralarını gündən-günə kəmiyyət və keyfiyyət baxımından zənginləşdirən Yeni Azərbaycan Partiyasında gənclərə fəaliyyətlərini daha da genişləndirmələri üçün lazımi şərait yaradılıb. Gənclər Birliyi partiyanın aparıcı qolu olmaqla respublikamızın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edir.

Toplantıda təşkilatın gənclər birliyinin hesabatı dinlənilib. Qurumun əvvəlki konfransdan ötən dövr ərzindəki fəaliyyəti ətraflı təhlil edilib, qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən bəhs olunub.

Konfransda təşkilati məsələlərə də baxılıb. YAP Ağdam rayon təşkilatı Gənclər Birliyinin 17 nəfərdən ibarət şurasının və 9 nəfərdən ibarət idarə heyətinin tərkibi müəyyənləşib. Eyni zamanda, YAP Ağdam rayon təşkilatı Gənclər Birliyinin sədr və sədr müavinləri, eləcə də YAP Gənclər Birliyinin respublika konfransına nümayəndələr seçilib.

# 8714 mənzildə təbii qazın açılması təmin olunub




Cari ilin yanvar-iyun ayları ərzində çoxmərtəbəli binalar üzrə 8 min 714 mənzildə təbii qazın açılması təmin edilib.

"Azəriqaz" İstehsalat Birliyindən AZƏRTAC-a bildirilib ki, birlik çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir. Görülmüş işlərin nəticəsidir ki, "Azəriqaz" bu ilin 6 ayında hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq müvafiq sənədləri təqdim olunan çoxmərtəbəli binalar üzrə təbii qazın verilməsini təmin edib. Həmin binalarda ümumilikdə 8 min 714 ailə yaşayır.

"Azəriqaz" təbii qazın satışı ilə məşğul olan bir qurum kimi zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binanın ən qısa müddətdə "mavi yanacaq"la təmin olunmasında maraqlıdır.

# Neft istehsalının azaldılmasına dair qərar İrana şamil edilməyib



OPEC-ə üzv və qeyri-OPEC ölkələrlə əldə olunan neft istehsalının azaldılmasına dair qərar yenə də İrana şamil edilməyib.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın neft naziri Bijən Namidar Zənganə deyib.

Nazir bildirib ki, əvvəlki qərarda olduğu kimi bu qərar da İrana şamil olunmayıb.

Qeyd edək ki, iyulun 1-də Avstriyanın paytaxtı Vyanada keçirilmiş "OPEC plus" Nazirlərinin Birgə Monitorinq Komitəsinin 15-ci toplantısında tövsiyə olunmaqla OPEC Nazirlər Şurasının 176-cı iclasında OPEC-ə üzv və qeyri-OPEC ölkələrlə əldə edilən neft istehsalının azaldılmasına dair sazişin müddəti daha 9 ay uzadılması qərarlaşdırılıb. Qərar 2020-ci il martın 31-dək qüvvədə olacaq. Bu gün isə OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin 6-cı görüşündə həmin qərara dair müzakirələr aparılır.

İclasda ölkəmizi Energetika naziri Pərviz Şahbazov təmsil edir.

Xatırladaq ki, ötən il dekabrın 7-də Vyanada OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin 5-ci görüşündə neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması ilə bağlı razılıq əldə olunmuşdu. "Əməkdaşlıq Bəyannaməsi"nin icrası cari ilin ilk yarısı üçün nəzərdə tutulmuşdu.

# OPEC və qeyri-OPEC ölkələrin nazirlərinin növbəti görüşünün vaxtı və yeri açıqlanıb




OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin növbəti görüşü dekabrda keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə OPEC məlumat yayıb.

Bildirilir ki, OPEC-ə üzv və qeyri-OPEC ölkələrin nazirlərinin növbəti görüşü bu il dekabrın 6-da Avstriyanın paytaxtı Vyanada təşkil olunacaq.

Qeyd edək ki, dünən Vyanada keçirilmiş "OPEC plus" Nazirlərinin Birgə Monitorinq Komitəsinin 15-ci toplantısında tövsiyə olunmaqla OPEC Nazirlər Şurasının 176-cı iclasında OPEC-ə üzv və qeyri-OPEC ölkələrlə əldə edilən neft istehsalının azaldılmasına dair sazişin müddəti daha 9 ay uzadılması qərarlaşdırılıb. Qərar 2020-ci il martın 31-dək qüvvədə olacaq. Bu gün isə Vyanada "OPEC plus" nazirlərinin 6-cı görüşündə OPEC-ə üzv və qeyri-OPEC ölkələri arasında uzunmüddətli əməkdaşlığa dair Xartiya qəbul olunub, eləcə də neft hasilatının azaldılmasına dair sazişin müddətinin daha 9 ay uzadılması ilə bağlı razılıq əldə edilib.

# Ermənistanın yeganə qurtuluşu işğal etdiyi torpaqlardan çıxmaqdır

*Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzovun SİA-ya müsahibəsi*

***- Siyavuş müəllim, YAP-ın İcra Katibliyində artıq bir neçə müddətdir ki, partiyanın rayon təşkilatlarının, ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirələr keçirilir. Bu müşavirələrin məqsəd və məramı haqqında məlumat verməyinizi istərdik.***

- Ümumiyyətlə, YAP-ın 8 min ərazi ilk partiya təşkilat sədrləri və 84 rayon, şəhər təşkilatı var. Həmin təşkilatlarda 740 min partiya üzvü birləşib. Təbii ki, 740 min partiya üzvünü bir yerə toplamaq bir qədər çətindir. Ona görə də biz bunlarla işləyən ərazi ilk partiya təşkilatları sədrlərinin müşavirəsini keçiririk. YAP-a ərazi ilk partiya təşkilatları sədrlərini dəvət edirik və lazımi tapşırıqları veririk. Hətta elə rayon var ki, orada 100-160 ərazi ilk partiya təşkilatı var. O baxımdan da bütün respublika üzrə biz ardıcıl şəkildə 8 min insanla görüşlər keçiririk. Onların vasitəsilə də öz mesajlarımızı, fikirlərimizi, rəylərimizi, Partiya sədrinin siyasətini, təkliflərini, sözlərini yerli təşkilatların hər bir üzvünə çatdırırıq.

***- Son dövrlər Azərbaycan dövləti mütəmadi olaraq müxtəlif səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu günlərdə Bakıda keçirilən UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası da bu qəbildəndir. Bəs, siz bu kimi tədbirlərin əhəmiyyətini necə dəyərləndirirsiniz?***

- Azərbaycan artıq beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Azərbaycanda keçirilən beynəlxalq tədbirlər silsilə xarakteri alıb. Gəlin görək, bu nədən irəli gəlir? Bu gün Azərbaycanın iqtisadi inkişafı, ölkəmizdə olan iqtisadi-siyasi sabitlik, xalq-iqtidar birliyi və cənab Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar bunu deməyə əsas verir. Bildiyiniz kimi, 24-26 iyun 2019-cu il tarixində Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Birləşmiş Millətlər Təşkilatı ilə birgə BMT-nin Dövlət Xidmətləri Forumunu keçirdi. Həmin Forumda BMT-nin 200 üzvündən 193-ü iştirak edirdi. Deməli olar ki, Ermənistan istisna olmaqla BMT-yə üzv olan bütün ölkələrin nümayəndələri Bakıda idi. Bu böyük bir göstəricidir. Bir sözlə, Azərbaycanda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə böyük bir Forum keçirildi. Ölkəmizdə milli, dini, etnik ayrı-seçkilik yoxdur və hamıya bərabər şəkildə yanaşılır. Təbii ki, bütün bunları da dünya görür. Məhz bu baxımdan da dünyanın aparıcı dövlətləri bütün tədbirlərini Azərbaycanda keçirir. Azərbaycan artıq sabit bir ölkəyə çevrilib. Təbii ki, bütün bunların da başında Azərbaycan Prezidenti cənab İlham Əliyev, Onun apardığı siyasət və hər bir dövlətə, vətəndaşa yanaşma prinsipi dayanır.



***- Bu gün iqtisadi vəziyyəti ağır olan Ermənistanda Paşinyan hakimiyyəti çıxış yolu kimi ilk növbədə Rusiyadakı erməni vəsaitlərini ölkəyə cəlb etməkdə görür. Bu barədə siz nə düşünürsünüz?***

- Ermənistanın baş naziri Nikol Paşinyan heç cür ölkəsini dirçəldə bilməyəcək. Bu gün işğalçı ölkənin heç bir çıxış yolu yoxdur. Ermənistanın yeganə yolu Türkiyə və Azərbaycanla münasibətlərinin bərpa olunmasından keçir. Əgər onlar erməni xalqının, Ermənistanda yaşayan əhalinin güzəranının yaxşılaşmasını istəyirlərsə, bunlar Azərbaycanın işğal olunmuş ərazilərini azad etməlidirlər və ölkəmizdə qarşılıqlı sülh yaradılmalıdır. Bundan sonra isə Azərbaycanın həyata keçirdiyi layihələrdə Ermənistanın iştirakı bu ölkəni xilas edəcək. Xalqların sülhə hazırlanması prosesi olduqca çətin prosesdir. Bu gün Azərbaycanda kifayət qədər insan öz ailə üzvlərini, yurd-yuvasını, mülkünü itirib və ata-babasının məzarları darmadağın olub. Azərbaycanın xeyli sayda mədəni abidələri, məscidləri darmadağın edilib və muzeylərimiz talan olunub. Bu mənada həmin proses çox ağırdır. Amma əvvəl-axır sülh prosesi təmin olunmalıdır. Əgər Azərbaycanın haqq işi bərpa olunursa, ərazi bütövlüyü təmin olunursa biz buna gedəcəyik.

***- Artıq bir neçə gündür ki, AXCP sədri Əli Kərimli və partiyanın funksionerləri, fəalları ictimai asayişi kobud şəkildə pozan, qanunların tələblərinə riayət etməyən, polisə müqavimət göstərən və digər bu kimi qanunazidd əməllər törədən şəxslərə kəsilmiş cərimələrin ödənilməsinə guya yardım göstərmək məqsədilə "xeyriyyə marafonu" adı altında müxtəlif çağırışlar irəli sürür, kampaniya təşkil edirlər. Azərbaycanda sabitlik olduğu halda bu kimi çağırışlar nədən xəbər verir?***

- AXCP sədri Əli Kərimlinin və onun ətrafının "xeyriyyə marafonu" adı altında müxtəlif çağırışlar etmələri sırf onlara verilən tapşırıq əsasında həyata keçirilirdi. Xaricdə oturan erməni lobbisi Azərbaycanda keçirilən bu cür tədbirlərin nüfuzuna xələl gətirməkdən, kölgə salmaqdan ötrü guya "xeyriyyə marafonu" adı altında bu cür kampaniya təşkil edirdilər. Burada bir növ təxribat var idi. Onların təbirincə, guya Azərbaycanda vəziyyət elədir ki, artıq burada "xeyriyyə marafonu"na ehtiyac var. Bu gün Azərbaycanda kasıblığın, işsizliyin həddi minimuma çatıb, əmək haqları artırılıb. Təsəvvür edin ki, bu insanlar ölkəmizdə əmək haqları, pensiyalar artırılan zaman "xeyriyyə marafonu" adlı kampaniya təşkil edirlər. Aydın məsələdir ki, onlar verilən tapşırığı yerinə yetirməlidirlər və nəticə etibarilə də bu addımı atırlar. O baxımdan da bunlar həmişə müəyyən dairələrin tapşırıqlarını yerinə yetirməyə çalışan insanlardır. Məsələn, görürsən ki, cəbhə bölgəsində hansısa hadisə baş verən kimi onlar yenə ayaqüstədirlər və hər bir olaya reaksiya verirlər. Bir sözlə, onlar Azərbaycanın əleyhinə olan hadisələrə dərhal reaksiya verirlər. O baxımdan da bunların "xeyriyyə marafonu" adı altında müxtəlif çağırışlar etməsi sırf təxribat idi və hüquq mühafizə orqanları da bu təxribatın qarşısını aldı.

***- Siyavuş müəllim, milli maraqlarımıza əks addımlar atan Sevinc Osmanqızı zaman-zaman Azərbaycan dövləti tərəfindən mənzillə mükafatlandırılan jurnalistləri çirkin niyyətinin hədəfinə çevirir. Sizcə, onun şər-böhtan kampaniyasının arxasında nə dayanır?***

- Bu gün Sevinc Osmanqızı Amerikada müəyyən dairələrin, xüsusilə də erməni dairələrinin təsiri altındadır. Bu insan bir şeyi dərk etmir ki, onun valideynləri də erməni təxribatından ziyan çəkib. Beləcə, o dairənin marağını həyata keçirən insan birinci növbədə öz valideynlərinə xəyanət edir. Digər tərəfdən isə jurnalistlərə mənzillərin verilməsinin nəyi pisdi axı? Bu gün dövlətimiz tərəfindən evsiz jurnalistlərə mənzillər verilir, onların ailəsi sevindirilir və övladlarına şərait yaradılır. Onun fikrincə, guya jurnalistlər bununla ələ alınır. Burada heç bir jurnalistə qarşı ayrı-seçkilik belə yoxdur. Həmin mənzil alan jurnalistlər arasında "Azadlıq" qəzetinin, "Yeni Müsavat" qəzetinin əməkdaşları da olub. Mənzillər bərabər və ədalətli şəkildə jurnalistlərə təqdim olunub. Artıq jurnalistlər üçün tikilmiş üçüncü binada son tamamlanma işləri gedir. Digər mənzillər kimi burada da ədalətli şəkildə bölgülər olacaqdır. Bunun nəyi pisdir? İnsanların bir növ rahat şəkildə yazıb və yaratmaları üçün şərait yaradılır. Bu şəraitin əleyhinə çıxmaq isə ən böyük düşmənçilikdir. Hesab edirəm ki, jurnalistlər də kəskin şəkildə buna öz münasibətlərini bildirməlidirlər. Bu gün elə jurnalistlər var ki, 30-40 ildir ki, bu peşə ilə məşğuldurlar. Onların arasında evsizləri, ağır şəraitdə yaşayanları var və s. Bu mənada hesab edirəm ki, Sevinc Osmanqızının hadisələrə başqa don geyindirməyi onun çirkin xislətindən xəbər verir.

# Ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi - müasir Sədərək

## HEYDƏRABAD QƏSƏBƏSİNDƏ YENİ YAŞAYIŞ BİNASI İSTİFADƏYƏ VERİLİB

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sədərək rayonuna səfəri zamanı deyib: "Biz güclü dövlət qururuq. Bu dövlətin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun zəhməti, yorulmaz fəaliyyəti, müdrik siyasəti nəticəsində bu gün Azərbaycan böyük zirvələri fəth etməyə nail olub".**

Sədərək rayonunun yaranması və inkişafı da ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq sərhəd yaşayış məntəqəsinin inkişafını diqqətdə saxlayıb, 1990-1993-cü illərdə isə Sədərək işğaldan qorunub. Milli Qurtuluşdan başlanan yol müstəqillik illərində rayonu müasir yaşayış məntəqəsinə çevirib. Bu gün Heydər Əliyev siyasi xəttinə sədaqət Sədərək rayonunda davamlı inkişafı təmin edib, Heydərabad qəsəbəsində və kəndlərdə quruculuq işlərinin miqyası genişlənib, məskunlaşma artıb.











Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 2-də - ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyi ərəfəsində Sədərək rayonunun Heydərabad qəsəbəsində yeni yaşayış binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov muxtar respublikada əhalinin rahat yaşayışı, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan işlərin tərkib hissəsi olaraq Heydərabad qəsəbəsində yeni yaşayış binasının inşa olunduğunu bildirib, tikinti işlərinin yüksək keyfiyyətlə başa çatdırıldığını qeyd edib. Rayonda aparılan quruculuq işləri haqqında məlumat verən Hicran Rüstəmov bundan sonra da tapşırıqların icrası üçün səylə çalışacaqlarını qeyd edib, inşaatçılar adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək rayonunda yeni yaşayış binasının istifadəyə verilməsi münasibətilə sakinləri təbrik edib, binanın tikintisində əməyi olanlara təşəkkürünü bildirərək deyib: İyulun 14-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50 ili tamam olur. Ulu Öndərin ölkəmizə birinci rəhbərliyi dövrünün nəticəsi olaraq Azərbaycan müstəqil dövlətə çevrildi. Müstəqilliyin ilk illərində Azərbaycanın Ümummilli Liderimizin siyasi xəttindən uzaqlaşması faciələrə səbəb oldu. Ulu Öndərin xalqın tələbi ilə yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra isə bütün sahələrdə inkişaf təmin edildi, müstəqilliyimiz qorundu, Azərbaycan güclü və qüdrətli dövlətə çevrildi. Bu gün ölkə Prezidenti Ümummilli Liderimizin siyasi xəttini uğurla davam etdirir. Nəticə isə ondan ibarətdir ki, işğalçı ölkə ilə sərhəddə yerləşən Sədərək rayonunda hər cür şəraiti olan 48 mənzilli yeni yaşayış binası istifadəyə verilir. Bu, ölkəmizin inkişafının, dövlətin vətəndaşlara qayğısının, ən əsası isə dövlət-xalq birliyinin göstəricisidir.

Qeyd olunub ki, yeni yaşayış binasının ilk sakinləri də dövlət qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş vətəndaşlardır. Həmin şəxslərin mənzillərlə təmin olunması həm də dövlətin bu kateqoriyadan olan insanlara qayğısının təzahürüdür. Çünki ölkəmizdə sosial sahənin inkişafı daim diqqətdə saxlanılır. Azərbaycanın azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş, sağlamlığını itirmiş şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Dövlətçilik yolunda öz xidməti borclarını layiqincə yerinə yetirmiş şəxslərə göstərilən qayğı, eyni zamanda digər vətəndaşlar üçün də nümunədir.

Ali Məclisin Sədri deyib: Ötən dövrdə həyata keçirilən tədbirlər rayonun simasını tamamilə dəyişmiş, Sədərək müasir və abad yaşayış məntəqəsinə çevrilmişdir. Sədərək rayonunun inkişafına, abadlaşmasına bundan sonra da diqqət yetirilməlidir. Yaşayış binasının tikilməsində məqsəd də ondan ibarət idi ki, həm ailələr rahat yaşasın, həm də Sədərəyin bərəkətli torpaqları qorunub gələcək nəsillərə çatdırılsın.

Ali Məclisin Sədri yaşayış binasının istifadəyə verilməsi münasibətilə bir daha sakinləri təbrik edib, onlara yeni mənzillərində rahat və firavan həyat arzulayıb.

Heydərabad qəsəbə sakini, ziyalı Sultan Rzayev minnətdarlıq edərək deyib: "Sədərək son illər kompleks inkişaf edib. Rayonda icbari tibbi sığortanın tətbiqi sakinlərin sağlamlığının daha etibarlı qorunmasına şərait yaradıb. Mədəniyyət Sarayında insanların asudə vaxtları səmərəli təşkil olunur. Bu gün yeni yaşayış binasının istifadəyə verilməsi isə tarixi hadisədir. Çünki bina Ulu Öndərimizin Azərbaycanda rəhbərliyə gəlişinin 50-ci ildönümü ərəfəsində istifadəyə verilir. Sakinlər daim bu günü xatırlayacaqlar. Heydərabad qəsəbəsi Ulu Öndərin rəhbərliyi ilə yaradılıb. İşğalçı ölkənin ötən əsrin 90-cı illərində Sədərəyə hücumu zamanı dağılan evlər yenidən qurulub, yeni binalar tikilib. Sərhəd bölgəsi Sədərəkdə 48 mənzilli yaşayış binasının tikilməsi düşmənə göz dağı, bizə sevincdir. Bu, muxtar respublikada Ulu Öndərin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir:

*Ulu Öndər yolu haqqın yoludur,*
*Xalqın istəyidir, xalqın yoludur.*
*Bu yol sülhün, azadlığın yoludur,*
*Neçə kənd əməyi, şəhər əməyi,*
*Bu millət unutmaz Heydər əməyin.*

*Qanımız bayrağı göyə qaldırdı,*
*Vətənin yolunda çıraq yandırdı.*
*Neçə kənd saldırdı, şəhər saldırdı,*
*Neçə kənd əməyi, şəhər əməyi,*
*Bu millət unutmaz Heydər əməyin.*

Sədərəklilər bundan sonra da Ulu Öndərin yolu ilə gedəcək, rayonumuz inkişaf edəcək, qəsəbəmiz şəhərə çevriləcəkdir".

Sonra binaya baxış olub. Məlumat verilib ki, zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan bina 48 mənzillidir. Mənzillərdən 24-ü üçotaqlı, 24-ü isə ikiotaqlıdır. Üçotaqlı mənzillərin ümumi sahəsi 86 və 97, ikiotaqlı mənzillərin ümumi sahəsi isə 63 və 75 kvadratmetrdir. Fərdi istilik sistemi ilə qızdırılacaq mənzillərdə müasir kommunal məişət şəraiti yaradılıb, mərkəzləşdirilmiş antena sistemi və 2 lift quraşdırılıb.

Binanın həyətində abadlıq işləri görülüb, istirahət guşəsi yaradılıb, müasir işıqlandırma və suvarma sistemləri qurulub.

### Sosial himayəyə ehtiyacı olanlara mənzillər təqdim olunub

İyulun 2-də Sədərək rayonunda 1 şəhid ailəsinə, sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək deyib ki, muxtar respublikada Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış şəxslərin və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzindədir. 2019-cu ilin ötən dövründə müvafiq kateqoriyalı 363 nəfərin bərpa mərkəzlərində müalicələri təşkil edilib, 150 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilib, 8 ailəyə mənzil, 8 nəfərə minik avtomobili təqdim olunub. Sərhəd yaşayış məntəqəsi olan Sədərəkdə müvafiq kateqoriyadan olan insanlara yeni mənzillərin verilməsi də göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mənzillə təmin olunanları təbrik edib, onlara rahat və firavan həyat arzulayıb, mənzillərin orderlərini təqdim edib.

Mənzillə təmin olunan şəhid anası Dilbər Hüseynova, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən Qəzənfər Həmzəyev, Azərbaycan Vətən Müharibəsi veteranları Rəhim Salmanov və Ramazan Adnayev göstərilən qayğıya görə müharibə veteranları və şəhid ailələri adından Ali Məclisin Sədrinə minnətdarlıq ediblər.

Hər biri 3 otaqdan ibarət olan mənzillər tam təmir olunub, istilik sistemi quraşdırılıb.

Azərbaycan Vətən Müharibəsi veteranları Ramazan Adnayevin və Rəhim Salmanovun ailə üzvləri Mahirə Adnayeva və Güllü Salmanova minnətdarlıq ediblər. Mahirə Adnayeva deyib: "Dünyanın heç bir ölkəsində müharibə veteranlarına, şəhid ailələrinə Azərbaycanda olduğu qədər qayğı göstərilmir. Həyat yoldaşım Ramazan Adnayevə bir neçə il bundan əvvəl avtomobil təqdim olunub. Bu gün isə mənzil sahibi olduq. Dövlətin qayğısı bizi daha da ruhlandırır. Bundan sonra da dövlətimizin inkişafı və tərəqqisi yolunda səylə çalışacağıq".

### Dövlət qurumları üçün müasir iş şəraiti yaradılıb

Yeni istifadəyə verilən binada Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Heydərabad bələdiyyəsi və Sədərək rayon Gigiyena və Epidemiologiya Mərkəzi üçün iş otaqları ayrılıb, xidmət mərkəzi fəaliyyətə başlayıb.





Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət qurumları və xidmət mərkəzi üçün yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik və bələdiyyə üçün 4 iş otağı ayrılıb, kitabxana və iclas zalı istifadəyə verilib. Minə yaxın bədii ədəbiyyatla təmin olunmuş kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılıb.

Sədərək Rayon Gigiyena və Epidemiologiya Mərkəzi 5 otaq, bakterioloji laboratoriya və anbardan ibarətdir. Mərkəz lazımi avadanlıqlarla təmin olunub, fəaliyyətin təşkili üçün hərtərəfli şərait yaradılıb.

Kollektiv adından minnətdarlıq edən Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşı Yusif Zeynalov əvvəllər lazımi şəraiti olmayan binada fəaliyyət göstərdiklərini qeyd edib, yaradılan şəraitin məsuliyyətlərini daha da artırdığını bildirib.

Ali Məclisin Sədri torpaqlardan səmərəli istifadə olunması, sərhəd bölgəsində gigiyena və epidemioloji tədbirlərin, xüsusilə dezinfeksiya işlərinin diqqətdə saxlanılması barədə tapşırıqlar verib.

Xidmət mərkəzində ərzaq mağazası, bərbərxana və gözəllik salonu, pinəçi dükanı, dərzi fəaliyyət göstərəcəkdir. Bütün xidmət sahələri lazımi avadanlıqlarla təmin edilib.

# Sədərək Gömrük İdarəsi üçün müasir kompleks qurulur





**Naxçıvan Muxtar Respublikasında gömrük infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük İdarəsi üçün yeni kompleks inşa olunur.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iyulun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kompleksin inşası ilə maraqlanıb.

Məlumat verilib ki, 18 hektar ərazidə inşa olunan kompleks yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və sürətli keçidin təmin olunması üçün nəzərdə tutulan VİP və CİP zallarından ibarət olacaqdır. Kompleksdə əsas tikinti işləri başa çatdırılıb. Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulub. Üç zolaqla avtobus və minik nəqliyyat vasitələri, iki zolaqla yük nəqliyyat vasitələri hərəkət edəcəkdir. Bir zolaq isə sürətli keçid üçün istifadə olunacaqdır.

Sərnişin keçid zalında gömrük əməliyyatları və sərhəd nəzarətinin həyata keçirilməsi üçün xidməti otaqlar, eləcə də yerli məhsullar satılan "DUTY FREE" və kafe yerləşəcəkdir. Avtonəqliyyat vasitələrinin və sərnişinlərin keçidi üçün nəzərdə tutulan binanın ikinci və üçüncü mərtəbələrində xidməti otaqlar yaradılıb. Hazırda inzibati binada və keçid xətlərində son tamamlama işləri həyata keçirilir. Gələcəkdə kompleksdə sərnişin və yük qatarlarının gömrük nəzarətindən keçməsi üçün də lazımi şərait yaradılacaq, kinoloji xidmət fəaliyyət göstərəcəkdir.

Yeni gömrük kompleksinin istifadəyə verilməsi gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsinə imkan verəcəkdir. Bu da iqtisadi-ticarət əlaqələrini genişləndirməklə yanaşı, həm də muxtar respublikanın əlverişli tranzit imkanlarından və turizm potensialından səmərəli istifadəyə şərait yaradacaqdır.

Ali Məclisin Sədri kompleksin gömrük xidmətinin tələblərinə uyğun qurulması və işıqlandırılması, keyfiyyətə ciddi diqqət yetirilməsi, təcili tibbi yardım və yanğından mühafizə xidmətlərinin təşkil olunması barədə tapşırıqlar verib.

# Sədərək rayonunda Su Monitorinq Laboratoriyası istifadəyə verilib

**İyulun 2-də Sədərək rayonunun Heydərabad qəsəbəsində Su Monitorinq Laboratoriyası istifadəyə verilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak edib.

Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Mais Əliyev çıxış edərək deyib ki, muxtar respublikada ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu sahədə dövlət proqramları qəbul edilərək icra olunur. Son illər ətraf mühitin mühafizəsi sahəsində görülən işlər muxtar respublika ərazisində əlverişli ekoloji şəraitin qorunub saxlanılmasına zəmin yaradıb. Xüsusilə yaşıllıqların artırılması, flora və faunanın mühafizəsi sahəsində görülən işlər öz nəticəsini verib. Muxtar respublikada əhalinin sağlam ekoloji mühitdə yaşamasına xüsusi diqqət yetirilir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Sədərək Rayon Su Monitorinq Laboratoriyası yaradılıb, müasir avadanlıqlarla təchiz edilmiş yeni inzibati bina tikilib. Mais Əliyev göstərilən qayğıya görə minnətdarlıq edib, qarşıya qoyulan vəzifələrin icrasında səylə çalışacaqlarına söz verib.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək rayonunda ölkə əhəmiyyətli sahənin - Su Monitorinq Laboratoriyasının istifadəyə verildiyini bildirib, bu münasibətlə kollektivi təbrik edərək deyib: Su Monitorinq Laboratoriyasının istifadəyə verilməsi ölkəmiz və muxtar respublikamız üçün əhəmiyyətli və vacibdir. Ona görə ki, muxtar respublika qanunların işləməmdiyi işğalçı ölkə ilə sərhəddə yerləşir. İşğalçı ölkədə istismar müddəti başa çatmış Atom Elektrik Stansiyasının fəaliyyət göstərməsi bölgə üçün risk yaradır. Naxçıvan Muxtar Respublikasının sərhədləri daxilində su mühitinə nəzarət olunur, müvafiq təhlükəsizlik tədbirləri görülür. Lakin mənbəyi muxtar respublikada yerləşməyən çayların monitorinqini aparmaq və su mühitini nəzarətdə saxlamaq üçün yeni laboratoriyanın yaradılmasına ehtiyac var idi.

Ali Məclisin Sədri deyib: Laboratoriyanın yaradılmasında məqsəd muxtar respublikanın su mənbələrinin çirklənməsinin qarşısının alınmasından, eləcə də sularda yaşayan canlıları qorumaqdan ibarətdir. Müasir laboratoriyanın qurulması muxtar respublikanın sərhədləri daxilində tədbirləri vaxtında görməyə və qərar qəbul etməyə imkan verəcəkdir. Su monitorinqlərindən sonra analizlərin cavabı bu sahə ilə məşğul olan beynəlxalq təşkilatlara göndəriləcəkdir. İşğalçı ölkədən keçməklə muxtar respublika ərazisində axan çaylarda çirklənmə qeydə alındıqda isə dərhal beynəlxalq təşkilatlar məlumatlandırılacaqdır. Ölkə əhəmiyyətli Su Monitorinq Laboratoriyası dünyada yerləşən su monitorinqi laboratoriyalarının xəritəsinə daxil edilmişdir. Laboratoriyanın Ermənistanla sərhəd yaşayış məntəqəsi olan Sədərək rayonunda yerləşməsi həm də müşahidə olunacaq problemlərə vaxtında müdaxilə etməyə imkan verəcəkdir. Ona görə də işə məsuliyyətlə yanaşılmalı, analizlər dəqiq aparılmalı, nəticələrə uyğun olaraq müvafiq tədbirlər görülməlidir.

Ali Məclisin Sədri laboratoriyada monitorinqlərin vaxtında və düzgün aparılacağına əminliyini bildirib, əməkdaşlara uğurlar arzulayıb.

Sonra açılışı bildirən lent kəsilib. Bildirilib ki, binada analiz və nümunələrin hazırlanması otaqları istifadəyə verilib. Yeraltı və yerüstü suların müxtəlif təyinatlar üzrə analizlərinin aparılması üçün laboratoriya müasir avadanlıqlarla təchiz edilib. Laboratoriyada suyun radioaktiv çirklənməsini, suda olan ağır metalları, suyun codluğunu, duzluluğunu, elektrik keçiriciliyini, tərkibində turşuların və qələvilərin miqdarını, suda həll olmuş oksigeni təyin etmək mümkündür. Həmçinin laboratoriyada atom elektrik stansiyalarında istifadə olunan radioaktiv elementlərin nüvə parçalanmasından əmələ gələn tritium izotopunu təyin edən "TRİ CARB" cihazı quraşdırılıb. Yaradılan şərait muxtar respublikada su mühitinin yüksək keyfiyyətlə və dəqiqliklə öyrənilməsinə imkan verəcəkdir.

Laboratoriya avtomobillə təchiz olunub, binanın həyətində geniş abadlıq işləri aparılıb, yaşıllıq salınıb.

Ali Məclisin Sədri Su Monitorinq Laboratoriyasının imkanlarından səmərəli istifadə olunması, mütəxəssis hazırlığının diqqətdə saxlanılması, Səhiyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərilməsi, ayda bir dəfə monitorinq nəticələri barədə məlumatların hazırlanması və mətbuata verilməsi barədə tapşırıqlar verib.

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**strukturuna daxil olan qurumların 2019-cu il üçün yanğınsöndürmə vasitələrinə tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11108AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci.01.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla.08.08.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər Lot1 üzrə 118,00AZN, Lot1 üzrə 118,00AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
*I. 3 500,00 AZN miqdarında təminat tələb olunur. (LOT 2)*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*
*Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:** Səməd Əsədov
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 5211153
korporativ mobil nömrəsi: +99450 8411153
korporativ elektron ünvanı: samad.asadov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılış tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı.08.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

---

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**tələbatı olan qazma qurğusunun Çin XR-dən Azərbaycan Respublikasına daşınması xidmətinə açıq satınalma müsabiqəsi (11117AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 826 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***
**Müsabiqə təklifinin təminatı:**
* İddiaçının müsabiqə üçün 25000 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.
* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 10 (on) %-i məbləğində tələb olunur.Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu Neftçilər prospekti, 73
**Əlaqələndirici şəxs:** Orucov Mirismayıl
Satınalmalar və təchizat şöbəsi, ekspert
+99450 841 12 62
+99412 521 12 62
+99412 521 11 72
Mirismayil.orucov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılış tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 00.00.2019-cı il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Qazma borularına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11118AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi;

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 08.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 944 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsi 120 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. İddiaçının müsabiqə üçün 40000 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

***VI. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73, "Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:** Sadıqov Samir
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-386)
Elektron ünvan: samir.sadiqov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İB-nin Satınalmalar qrupu.**

SOCAR
"Azərikimya" İB

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azərikimya" İB-nin "Etilen-polietilen" Zavodu

**Polietilen istehsalatının 14 saylı sahəsindəki II düzüm kompressorlarının 6 kV, 250 d/dəq, 5000 kVt mühərriklərinin əsaslı təmir işlərinin satın alınması üzrə (31005TX-19) AÇIQ MÜSABIQƏYƏ DƏVƏT**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi(ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 17:30-qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 31 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 14.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər ƏDV daxil 472,0 (dörd yüz yetmiş iki ) manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Bank təminatı:***

* Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - 4000.0 AZN (dörd min) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə olmaq şərtilə,31 iyul 2019-cu il, Bakı vaxtı ilə saat: 14:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) % məbləğində müəyyənləşdirilir.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 90 gün ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ5000, Azərbaycan Respublikası, Sumqayıt şəhəri, Səməd Vurğun küçəsi 86
**Əlaqələndirici şəxs:**
Təmir-tikinti şöbəsinin mühəndisi İradə Nəbiyeva Daxili: 31 149
Korporativ mobil: 050 843 12 31 irada.nebiyeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 31 iyul 2019-cu il, tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azərikimya" İB-nin Satınalmalar qrupu**

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə keçirilməsi mühüm hadisədir

**Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Jalə Əliyevanın www.yap.org.az saytına müsahibəsi**



***- Jalə xanım, iyunun 30-da Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası öz işinə başlayıb. Sizcə, bu mötəbər tədbirin ölkəmizdə keçirilməsinin əhəmiyyəti nədən ibarətdir?***

- Bildiyiniz kimi, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək verməkdir. Bu məqsədlə ölkəmiz müstəqilliyini bərpa etdiyi vaxtdan UNESKO ilə sıx əməkdaşlıq münasibətləri qurub və təşkilatın fəaliyyətinə öz töhfəsini verib. 2013-cü ildə UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanda eyni müvəffəqiyyətlə hər iki ildən bir UNESKO-nun rəsmi tərəfdaşlığı ilə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Ümumdünya İrs Komitəsinin 42-ci sessiyasında qəbul edilmiş qərara əsasən Azərbaycan bu mötəbər qurumun növbəti sessiyasına ev sahibliyi etmək hüququ əldə edib. Azərbaycan üçün mühüm əhəmiyyətə malik belə bir qərarın qəbul olunması ölkəmizin UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərir. Prezident İlham Əliyev iyunun 30-dan iyulun 10-dək davam edəcək sessiyanın Bakıda layiqincə keçirilməsini təmin etmək məqsədilə müvafiq Sərəncam imzalayıb. Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda yüksək səviyyədə keçirilməsi təşkil olunub.

Bilirsiniz ki, sessiyanın açılış mərasimində respublikamızın Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva iştirak edib. Mötəbər tədbirdə çıxış edən Mehriban xanım Əliyeva ölkəmizlə bu təşkilat arasında ötən 27 ildə bir sıra sahələrdə uğurlu əlaqələrin qurulduğunu deyib və ümumdünya və milli irsin qorunmasının Azərbaycanda dövlət siyasətinin mərkəzində dayandığını söyləyib. Mehriban xanım diqqətə çatdırıb ki, son 5 ildə ölkəmizdə 40 tarixi abidə bərpa edilib və yenidən qurulub. İçərişəhər, Şirvanşahlar sarayı, Qız qalası, Qobustan qaya rəsmləri UNESKO-nun Dünya İrs Siyahısına daxil edilib. Musiqi xəzinəmizin inciləri olan muğam və aşıq sənətinin də bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olunub.

***- Ümumiyyətlə, Azərbaycan-UNESKO əməkdaşlığının hazırkı səviyyəsi haqqında nə deyə bilərsiniz?***

-Təbii ki, beynəlxalq təşkilatlarla əlaqələr hər bir ölkə, o cümlədən Azərbaycan üçün çox əhəmiyyətlidir. Müasir dövrdə dövlətlərarası əlaqələr o dərəcədə inkişaf edib ki, fəaliyyətin beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq ayrıca əhəmiyyət daşıyır. Bu səbəbdəndir ki, müxtəlif müstəqil dövlətlər BMT-nin ixtisaslaşmış qurumlarından biri olan UNESKO ilə əlaqələrə xüsusi önəm verirlər. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan-UNESKO əlaqələri tamamilə yeni dinamika aldı. Tərəflər arasında əməkdaşlıq UNESKO-nun himayə etdiyi bütün istiqamətlər üzrə sürətlə inkişaf etdi. Bu siyasəti hazırda Prezidentimiz cənab İlham Əliyev uğurla davam etdirir. Eyni zamanda, bu prosesdə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müstəsna rolu var.

Ümumiyyətlə, ölkəmiz BMT-nin Elm, Təhsil və Mədəniyyət üzrə Təşkilatı olan UNESKO ilə əlaqələrə xüsusi önəm verir. Təşkilat üzv ölkələrə bir sıra sahələr üzrə yardımlardan bəhrələnmək imkanı verir. O cümlədən, bu təşkilat təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsində, maddi-mədəni irsin qorunmasında əhəmiyyətli rol oynayır.

Lakin burada bir incə məqam da vardır. UNESKO fəal üzvlərlə əməkdaşlıqdan daha çox faydalana bilir. Yəni məsələ yalnız BMT-nin bu ixtisaslaşmış qurumunun yerinə yetirdiyi missiyada deyil. Başlıca şərt üzv dövlətin fəal iştirakı və xoşməramlı mövqe tutması ilə bağlıdır. Bu aspektdə heç də bütün üzvlər eyni qiymətləndirilmir. Azərbaycan isə bu istiqamətdə də digərlərindən müsbət mənada fərqlənir.

Hələ 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan Mədəniyyətinin Dostları Fondu təsis olunub. Bu Fondun dəstəyi ilə milli mədəniyyətimizin qorunması və təbliği sahəsində böyük layihələr həyata keçirilib. Bunlara muğam müsabiqələri, uşaq musiqi festivalları, caz festivalı və digər mədəni tədbirlər aiddir. Yəni Mehriban xanım Əliyeva Azərbaycan-UNESKO əlaqələrini düşünülmüş kurs üzrə, ardıcıl və davamlı olaraq inkişaf etdirib. Bu proses indi də uğurla davam edir və ölkəmiz bundan böyük faydalar götürür. Mədəniyyətimiz dünyanın bütün ölkələrində artıq tanınır.

2004-cü ildə yaradılan Heydər Əliyev Fondu da illərdir ki, çoxşaxəli və geniş fəaliyyəti ilə dünyada böyük maraq doğurur. Mütəmadi olaraq Azərbaycanda və xarici ölkələrdə tarixi, dini, mədəni abidələrin bərpası ilə bağlı layihələr reallaşdıran Fond dövlətçiliyin möhkəmlənməsi və mədəniyyətin təbliği sahəsində olduqca əhəmiyyətli missiya yerinə yetirir. Heydər Əliyev Fondu məktəblərin, uşaq bağçalarının, səhiyyə ocaqlarının, elmi, mədəni və sosial mərkəzlərin açılması sahəsində də kifayət qədər fəaldır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və Azərbaycan mədəniyyətini, qeyri-maddi mədəni irsini tanıdan proqramların reallaşdırılması UNESKO ilə əməkdaşlığın çox mühüm aspektini təşkil etməkdədir.

Mehriban xanım Əliyeva mədəniyyətlərarası əlaqələrin inkişafında, ölkəmizin zəngin mədəniyyətinin qorunması, müxtəlif mədəniyyət nümunələrinin öyrənilməsi sahəsində göstərdiyi xidmətlərinə görə 2004-cü il avqustun 13-də UNESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Bu hadisə sadəcə böyük xidmətləri olan bir şəxsiyyətin layiq olduğu qiyməti alması deyildi, həm də Azərbaycan-UNESKO əlaqələrində inkişafın yeni mərhələsinin təsdiqi idi. Çünki Mehriban xanım Əliyeva sistemli, konseptual və düşünülmüş fəaliyyəti ilə Azərbaycanla UNESKO-nun əməkdaşlığını keyfiyyətcə yeni səviyyəyə yüksəldə bildi.

Bütövlükdə, tərəflər arasında əməkdaşlıq daha sistemli olmaqla yanaşı, əhatə dairəsi də genişlənir. Artıq Azərbaycan dünyanın istənilən regionunda təşkil ediləcək tədbirlərin təşəbbüskarı ola bilir. Bu mənada UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının da ölkəmizdə keçirilməsi mühüm hadisədir.

***- Azərbaycanın bir çox mədəni irs nümunələri işğalçı Ermənistan tərəfindən dağıdılıb. Bu məsələ ilə bağlı Azərbaycan UNESKO çərçivəsində hansı addımları atır?***

- Ermənistan işğal olunmuş ərazilərimizdə yerləşən tarixi-mədəni abidələrimizə qarşı vandalizm həyata keçirib. Əlbəttə ki, Azərbaycan dövləti bu faktın dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli iş aparır. Bu baxımdan, UNESKO mühüm beynəlxalq tribunadır.

UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimində də Mehriban xanım Əliyeva çıxışı zamanı Ermənistan tərəfindən torpaqlarımızın 20 faizinin işğal edildiyini, 1 milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyini, yüzlərlə tarixi və memarlıq abidəsinin dağıdıldığını vurğulayıb.

Ölkəmiz təşkilat qarşısında hər zaman bu məsələni qaldırır və lazımi faktları təqdim edir. Lakin Ermənistan həmin ərazilərdə UNESKO-nun hər hansı monitorinqinin aparılmasını əngəlləyir. Bu da işğalçı dövlətin mahiyyətini bir daha ortaya qoyur. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti bundan sonra da işğalçı Ermənistanın əsl mahiyyətini dünyada ifşa etmək istiqamətində siyasətini davam etdirəcək.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə sosial layihələr müsabiqəsi keçiriləcək

Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) vətəndaş cəmiyyətinin inkişafı, Dayanıqlı İnkişaf Məqsədləri, o cümlədən ayrı-ayrı sahələr üzrə dövlət proqramlarına dəstək məqsədilə sosial layihələr müsabiqəsinə başlayır. Sosial layihələr müsabiqəsi qeyri-kommersiya sahəsində fəaliyyət göstərən təşkilat və birlikləri, vətəndaş qruplarını əhatə edəcək.

AZƏRTAC xəbər verir ki, müsabiqədə elm və təhsilin inkişafına, innovativ ideyaların dəstəklənməsinə, ətraf mühitin mühafizəsinə, müxtəlif sosialyönümlü məsələlərin həllinə və digər istiqamətlərə yönəlmiş layihələr iştirak edə bilər.

Müsabiqədə iştirak şərtləri "Regional İnkişaf" İctimai Birliyinin rəsmi internet saytında (www.riib.az) elan edildikdən sonra elektron qaydada ərizə və layihə sənədlərinin qəbuluna başlanılacaq.

Müsabiqənin nəticələrinə görə qalib seçilən layihələrin həyata keçirilməsinə maliyyə dəstəyi göstəriləcək.

Bununla əlaqədar olaraq, özəl sektorun nümayəndələri də korporativ sosial məsuliyyət layihələrinə töhfə verərək RİİB-in elan etdiyi müsabiqəyə dəstək göstərə bilər.

## Laura Robinson: Azərbaycanın dünya mədəni irsinin qorunmasına töhfəsi böyükdür



Qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanın dünya mədəni irsinin qorunmasına töhfəsi böyükdür. UNESKO-nun Ümumdünya İrs Komitəsinin sessiyası kimi mötəbər bir tədbirə ev sahibliyi etməsi də Azərbaycan dövlətinin tarixi və mədəniyyət abidələrinin qorunmasına xüsusi diqqətinin göstəricisidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) nümayəndəsi, Bakıda keçirilən 43-cü sessiyanın iştirakçısı Laura Robinson söyləyib.

Laura Robinson bildirib ki, Bakı sessiyası yüksək səviyyədə təşkil olunub: "Hər şey mənim gözlədiyimdən də yaxşıdır. Azərbaycanın bu cür tədbirlərə ev sahibliyi etmək üçün böyük təcrübəsi var. Bunu 43-cü sessiyanın açılış mərasimində də aydın görmək olurdu".

## Sessiyanın myanmalı iştirakçısı: Bakı dünyanın ən gözəl şəhərlərindən biridir



Azərbaycan UNESKO-nun Ümumdünya İrs Komitəsində çox mühüm rol oynayır və komitənin işinin irəli aparılması üçün gərgin əmək sərf edir.

Bu fikri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının myanmalı iştirakçısı Su Su bildirib.

Myanmalı nümayəndə deyib ki, sessiyanın keçirildiyi Bakı dünyanın ən gözəl şəhərlərindən biridir: "Bizim üçün burada hər cür şərait yaradılıb. Buna görə Azərbaycan hökumətinə təşəkkür edirəm".

Su Su qeyd edib ki, bu sessiyaya ev sahibliyi etməklə Azərbaycan dünyada mədəni və tarixi irsin qorunmasına mühüm töhfə verir. Komitəyə üzv olan hər bir ölkənin bu işə töhfə verməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan da, öz növbəsində, komitədə çox mühüm rol oynayır, onun işinin irəli aparılması üçün gərgin əmək sərf edir.

Qonaq Azərbaycana səfərdən məmnunluğunu ifadə edərək deyib: "Ölkənizdə ilk dəfədir ki səfərdəyəm, insanlar çox mehriban və qonaqpərvərdir. Bakıya səfərdən zəngin təəssüratlarla qayıdacağam".

## Təmas xəttində nisbi sakitlik müşahidə olunub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**Kabellər üçün müxtəlif növ muftalara və mis kabel ucluqlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25087-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* 1. Müsabiqədə iştirak haqqında müraciət;
* 2. İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* 3. Müsabiqə təklifinin bank təminatı.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər
* 1-ci lot üzrə 177 (ƏDV-ilə)
* 2-ci lot üzrə 59 (ƏDV-ilə)
* manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
Beneficiary Bank: The International Bank of Azerbaijan RepublicAZ38IBAZ38010019449306332120, Customer Service Department
VÖEN: 9900003871, SWIFT: İBAZAZ2X
Müştəri Xidməti Departamenti, Nizami str., 67
Kod: 805250, Phone: (+99450) 493-68-23
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
VÖEN: 9900001881, TAX İD: 9900003871
SWIFT BIK: İBAZAZ2X.
Account No: AZ23IBAZ38110018269306332120
Intermediary Bank: Commerzbank AG,
Frankfurt am Main Intermediary Bank: Deutsche Bank Trust Company Americas,
New York S.W.I.F.T: COBADEFF
S.W.I.F.T: BKTRUS33ACC # 400 88 660 3001ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic “Customer Service Department
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2XSWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalınan mallar üzrə satınalma müqaviləsi 30 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Müqavilə üzrə ödəniş:**

Satınalınan mallar üzrə Satınalma təşkilatı müqavilə üçün ödəniş əməliyyatını hissə-hissə 30-60 təqvim günü ərzində nəzərdə tutur.

**Müsabiqə üzrə tələb olunan bank təminatları:**

*1. İddiaçının LOT1 üçün 2600 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutada müsabiqənin təklifi üzrə bank zəmanəti tələb olunur.*

*2. Bank təminatlarının əsli ayrı zərfdə müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*3. Təminat vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank təminatlarını qəbul etməmək hüququnu özündə saxlayır.*

*4. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (pul vəsaitinin köçürülməsi, depozitlər və debutor borcdan dondurma) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanın V paraqrafında göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*5. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.*

*Qeyd: Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişi yerinə yetirilməsi nəzərdə tutulur.*

*6. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.*

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 4-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Əmiraslanov Emil.
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-07-67
Faks nömrəsi: +994 12 521-07-67
Elektron ünvan: Emil.Amiraslanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## “Neftqaztikinti” Tresti

**yük qaldırmaq üçün kəmərlər və ilmələrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25125-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər LOT 1 üzrə 118 manat (ƏDV-ilə), LOT 2 üzrə 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
AZ38IBAZ38010019449306332120, Customer Service Department
VÖEN: 9900003871, SWIFT: İBAZAZ2X
Müştəri Xidməti Departamenti, Nizami str., 67
Kod: 805250, Phone: (+99450) 493-68-23
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
VÖEN: 9900001881, TAX İD: 9900003871
SWIFT BIK: İBAZAZ2X.
Account No: AZ23IBAZ38110018269306332120
Intermediary Bank: Commerzbank AG,
Frankfurt am Main Intermediary Bank: Deutsche Bank Trust Company Americas,
New York S.W.I.F.T: COBADEFF
S.W.I.F.T: BKTRUS33ACC # 400 88 660 3001ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic “Customer Service Department
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2XSWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 30-45 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

Satınalma müqaviləsində ödəniş şərti Alıcının sifarişi əsasında faktiki tədarük edilmiş mallar üçün 30 təqvim günü ərzində.Satınalma müqaviləsində nəzərdə tutulmuş avans məbləği təklifin dəyərinin 30%-dən yuxarı təşkil etməməlidir.

**Bank təminatı:**

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, “Neftqaztikinti” Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Astanov Siyavuş
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 01.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**“Neftqaztikinti” Trestinin Satınalmalar qrupu**

# “Azərenerji” ASC-nin Reabilitasiya Proqramı və yeni hədəflər”

**Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi islahatlar aparır, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Təbii ki, ölkəmizin əldə etdiyi bütün uğurlar Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən daxili və xarici siyasətinin nəticəsidir. Son illərdə yeni generasiya güclərinin yaradılması hesabına Azərbaycan elektrik enerjisi sahəsində idxalçıdan ixracatçıya çevrilib, Bakı şəhərinin və regionların fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təchizatındakı fasilələr aradan qalxıb.**



Son bir ildə dövlət başçısı Cənubi Qafqazın ən böyük külək elektrik stansiyası olan “Yeni Yaşma” KEP-in, o cümlədən “Lerik” Elektrik Stansiyasının açılışında iştirak edib. Bundan başqa, elektroenergetika sahəsinə xüsusi diqqət və qayğı yönəldən dövlətimizin başçısı yeni tikilən və yenidən qurulan 110 kV-luq “Dəliməmmədli”, “İsmayıllı”, “Lənkəran”, “Ağ şəhər”, “Bakıxanov”, “Lənkəran”, “Beyləqan” yarımstansiyalarının açılışında iştirak edərək onları işə salıb. Yay aylarında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan 400 MVt-lıq “Şimal-2” ES-in istismara verilməsi planlaşdırılıb. Hazırda “Azərbaycan” İES də başda olmaqla əksər elektrik stansiyalarında, qovşaq yarımstansiyalarda, yüksəkgərginlikli elektrik verilişi xətlərində “Reabilitasiya Proqram”ına uyğun olaraq işlər sürətlə davam etdirilir, enerjinin idarə edilməsi üçün SCADA dispetçer sisteminin yenidən qurulması istiqamətində işlər aparılır.

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, “itirilmiş” generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlər həyata keçirilir. Düz bir il əvvəl, yəni 2018-ci ilin iyul ayının 3-də Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasında baş vermiş qəzanın təkrarlanmaması məqsədilə “Azərenerji” ASC tərəfindən hazırlanaraq dövlət başçısına təqdim edilən “Reabilitasiya üzrə Tədbirlər Planı” əsasında təxirəsalınmaz tədbirlər görülür. Belə ki, “Cənub”, “Şimal” və “Bakı” elektrik stansiyalarında görülən işlər nəticəsində 230 MVt gücü bərpa edilib. Bundan əlavə, Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan “Azərbaycan” İstilik Elektrik Stansiyasının 6 saylı enerji blokunda kompleks yenidənqurma işləri aparılıb və nəticədə təmirdən sonra 6 saylı enerji blokunda 60 MVt yük məhdudiyyəti aradan qaldırılıb. Ümumiyyətlə, “Reabilitasiya Proqramı” çərçivəsində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan “Azərbaycan” İES tamamilə yenidən qurulur. Yeni turbinlər, generatorlar, rele mühafizə sistemi, sexlər, yarımstansiyalar, 500 və 330 kV-luq hava xətləri, əks qəza avtomatikası yenidən qurularaq bərpa edilir. Yanğınsöndürmə, inzibati bina, idarəetmə mərkəzi tikilir. Yuxarı Qarabağ kanalının üzərindən əhali üçün yeni körpü və yol salınacaq, yeraltı soyutma su boru sistemləri bərpa ediləcək. Görülmüş işlər nəticəsində stansiyanın gücü 320 MVt artaraq 2000 MVt-a çatacaq. Proqram çərçivəsində paytaxt Bakıda, o cümlədən regionlarda infrastruktur və sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayan “Bakı”, “Astara”, “Şəki”, “Xaçmaz”, “Şahdağ” və “Səngəçal” modul tipli elektrik stansiyalarında da itirilmiş gücün bərpası istiqamətində işlər aparılır.

Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına həsr olunan iclasında dövlətimizin başçısı vurğulayıb ki, indi biz xaricə elektrik enerjisi ixrac edirik: “İlin sonuna qədər elektrik enerjisi ilə bağlı modernləşdirmə prosesi davam etdiriləcək. Mövcud stansiyaların potensialının gücləndirilməsi üçün işlər aparılır. Yenidənqurma, bərpa, modernləşmə işləri nəticəsində biz mövcud stansiyalarda ən azı 400-500 meqavat əlavə enerji gücü əldə edə biləcək. Artıq bütün hesablamalar var və əminəm ki, biz bu işdə uğur qazanacağıq. Beləliklə, hesab edirik ki, ancaq modernləşmə nəticəsində bir böyük yeni stansiya qurulacaq. Əgər biz “Şimal-2” stansiyasının tikintisini də əlavə etsək, - o da təqribən 400-500 meqavat gücünə malik stansiya olacaq - bizim enerji potensialımız daha da artacaq və ölkəmizin artan sənaye potensialı, artan əhali əlbəttə ki, gələcəkdə də etibarlı qaydada elektrik enerjisi ilə təmin ediləcəkdir.”

Ümumiyyətlə, “Azərenerji” ASC bu ilin ilk dörd ayı ərzində elektik enerjisinin ixracını və istehsalını 2018-ci ilin aprel ayı ilə müqayisədə xeyli artırıb. Bu ilin aprel ayında 1.825 milyard kvts elektrik enerjisi istehsal edilib ki, bu da ötən ilin aprel ayı ilə müqayisədə 163 milyon kvts və ya 9,8 % çoxdur. Belə ki, ötən ilin aprel ayında 1.662 milyard kvts elektrik enerjisi istehsal edilmişdi. Bir faktı da qeyd edək ki, 2018-ci ilin aprel ayı ilə müqayisədə 2019-cu aprel ayında elektrik enerjisinin istehlakı 74,6 milyon kvts və ya 4,6 faiz artıb. Bu isə ölkə əhalisinin, o cümlədən sosial-iqtisadi infrastukturun və xaric dövlətlərə ixracın artması və nəhayətdə tələbatın yüksəlməsi ilə bağlıdır.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) sədri, iqtisadçı ekspert Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında da bildirdi ki, enerji təminatı sisteminin dayanıqlılığında digər mühüm amillərdən biri isə ehtiyat gücün həcmidir: “Strateji Yol Xəritəsinin müəllifləri tərəfindən aparılan araşdırmalara görə, Azərbaycanın enerji təminatı sisteminin ehtiyat gücü 2009-cu ildə 46% təşkil etdiyi halda, 2015-ci ildə 34% olub. Müəlliflərin hesablamalarına görə, 2020-ci ildə ehtiyat gücü cəmi 14% olacaq ki, bu da beynəlxalq miqyasda qəbul edilmiş normadan (25%) az olmaqla təhlükəsizlik riskini artırır. Ehtiyat gücün az olması hər hansı bir səbəbdən tələbin kəskin artması halında sistemin dayanıqlılığını zəiflədir. Qeyd edək ki, 2018-ci ilin iyun ayında Azərbaycanın enerji sektorunda baş verən qəza problemin aktuallığını bir daha gündəmə gətirdi. Qəzanın əsas səbəblərindən biri kimi mövsümi tələbatın artmasından qaynaqlanan yük artımı göstərilirdi. Hazırda elektrik enerjisinin təminatı sisteminin inkişafına təsir edən amillərdən biri kapital çatışmazlığı hesab edilir. Statistik göstəricilərin təhlilindən aydın olur ki, bu sahəyə kapital qoyuluşlarının cəmi investisiya qoyuluşlarında xüsusi çəkisi 2006-cı ildə 9,4% olduğu halda, 2015-ci ildə 1,7 faizədək azalıb. 2016 və 2017-ci illərdə isə müvafiq olaraq 2,3% və 5% olub. Sadalanan indikatorlar üzrə təhlillər göstərir ki, ölkənin enerji təminatı sisteminin daha da gücləndirilməsi prioritetdir. Nəzərə alsaq ki, Azərbaycan iqtisadiyyatında növbəti illərdə iqtisadi artım tempinin sürətlənəcəyi proqnozlaşdırılır, belə düşünmək olar ki, paralel olaraq elektrik enerjisinə tələb də artacaq. Başqa sözlə, böyüyən iqtisadiyyatın sabit enerji ilə təmin edilməsi zərurəti bu sahədə yeni çağırışlar formalaşdırır. Bununla yanaşı, “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi” 2020-ci ilədək elektrik enerjisinin təchizatı sahəsində xidmət səviyyəsinin yüksəldilməsi, əlavə istehsal gücünün yaradılması, ixrac imkanlarının artırılması, özəlləşdirmə və bu sahədə dövlət-özəl əməkdaşlığının gücləndirilməsi, investisiya mənbələrinin şaxələndirilməsi yolu ilə kapital qoyuluşlarının artırılması, elektrik enerjisinin ötürülmə və paylanma sisteminin təkmilləşdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi kimi konkret öhdəliklər müəyyən edib. Bütün bunlar onu deməyə əsas verir ki, elektrik enerjisi növbəti illərdə iqtisadiyyatın enerji təhlükəsizlik kontekstində prioritet sahələrdən biri olacaq.”

Energetika üzrə ekspert İlham Şaban isə qəzetimizə açıqlamasında qeyd etdi ki, Prezident İlham Əliyevin elektroenergetika sahəsinə yönəlmiş strategiyasına uyğun olaraq, Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib: “Əgər ölkəmiz uzun müddət qonşu Rusiya, Gürcüstan, İran və Türkiyəyə enerji ixrac edirdisə, artıq 2019-cu ilin mayından başlayaraq “Azərenerji” Gürcüstan və Türkiyədən tranzit yolu ilə Yunanıstana, eyni zamanda Gürcüstan, Türkiyə və Bolqarıstandan tranzit yolu ilə Rumıniya və Macarıstana elektrik enerjisinin ixracına başlayıb. May ayı üçün enerji idxalı ilə bağlı Yunanıstandakı hərracda 7, Bolqarıstandakı hərracda 5 şirkət iştirak olub ki, onların hər ikisində “Azərenerji” uğur əldə edib. Bundan başqa, sonrakı aylarda “Azərenerji” Avstriya və İtaliyaya da elektrik enerjisi ixrac etməyi planlaşdırır. Yəni, Azərbaycan növbəti dəfə özünün uğurlu iqtisadi baxışını ortaya qoyur və şaxələndirilmiş ixrac strategiyasını reallaşdırır. Yəni Avropa bazarına təkcə xam qaz yox, həm də qazdan istehsal etdiyi məhsulu - elektrik enerjisini çıxarır.”

Ekspert bir maraqlı faktı da diqqətə çatdırdı ki, əgər ölkəmizdəki hidroelektrik stansiyaları nəzərə almasaq, ötən il alternativ mənbələr hesabına istehsal edilmiş 100 milyon kVt/saat elektrik enerjisinin yarıdan çoxu məişət tullantılarının təkrar istehsalı hesabına əldə edilən elektrik enerjisinin payına düşüb: “Bu da çox perspektivlidir. Ümumiyyətlə, ölkəmizdə alternativ enerji mənbələrindən 1 milyard kVt/saat elektrik enerjisini istehsal etmək mümkündür. Bu baxımdan Azərbaycanda elektrik enerjisinin gələcək planları səmərəlilik, qənaətcil texnologiyalar və texniki itkilərin minimuma endirilməsi strateji baxışlar üzərində inkişaf etdiriləcək.”

Fəxrlə qeyd etmək olar ki, Azərbaycanda əhalinin elektrik enerjisi ilə etibarlı təminatı 100 faizdir. Bu barədə Dünya İqtisadi Forumunun açıqladığı “Qlobal Rəqabətlilik İndeksi 2018” hesabatında da bildirilib. Sənədə əsasən, Azərbaycan elektrikləşdirmə indeksi üzrə müəyyən edilmiş maksimum 100 baldan hamısını toplayaraq 140 ölkə arasında birinci yerə çıxıb. Artıq ölkəmizdə ən ucqar dağ kəndlərində belə əhali fasiləsiz elektrik enerjisi ilə tam təmin olunub. Bu faktlar sübut edir ki, ölkəmizdə elektrik enerjisi istehsalı sahəsində görülən işlər və həyata keçirilən tədbirlər çoxşaxəlidir.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

***Yazı “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***

# Su problemi yoluna qoyulub

Son illər Astara rayonunda inkişafda olan yaşayış məntəqələrindən biri Qəcimardə kəndidir. Mərkəzdən 12 kilometr uzaqda yerləşən bu yerlərin təbiəti səfalı, əkin sahələri münbit, insanları əməksevərdir. Kənd sakinləri əsasən bağçılıqla məşğul olur. Sitrus meyvələri buranın təbiəti üçün daha sərfəlidir. Geniş meyvəli bağ-bağatdan əldə edilən bol, yüksək keyfiyyətli məhsul kəndin inkişafına, insanların rahat güzəranına əlverişli imkan yaradır.

Əvvəllər suvarma suyunun azlığı bağların məhsuldarlığını aşağı salırdı. Artıq bağ sahiblərinin üzləşdiyi problem öz həllini tapmışdır. Belə ki, yararsız hala düşmüş 240 tonluq su çəni təmir edilib, 1,5 kilometr məsafədə köhnəlmiş metal boru plastik boru ilə əvəzlənib. Həm də 0,5 yeni su xətti çəkilməklə 115 çıxış ventili olan 23 supaylayıcı quraşdırılıb bağları suvarmaqdan ötrü kəndlilərin istifadəsinə verilib.

Yenilik sitrus bağlarının suya tələbatını ödəyir, yetişməkdə olan ekoloji cəhətdən saf, ətirli meyvələr göz oxşayır.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# “Yaşamaqdan doymayanlar”



Ötən gün Qusar rayonunun Heydər Əliyev Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə ərsəyə gəlmiş, tanınmış jurnalist və publisist Nəbi Rzayevin həyatından bəhs edən “Yaşamaqdan doymayanlar” sənədli filminin təqdimat mərasimi keçirilib.

Tədbiri Qusar Rayon İcra Hakimiyyəti başçısının müavini Elman Mustafayev açaraq, Qusarda yaşamış və fəaliyyət göstərmiş jurnalist N.Rzayevin rayonun tanınmış ziyalılarından, söz adamlarından biri olduğunu vurğulayıb. N.Rzayevi peşəsi üçün fədakarlıq nümunəsi kimi dəyərləndirən E.Mustafayev bildirib ki, mərhum jurnalistin həyat və yaradıcılığından bəhs edən sənədli film onun ruhuna olan böyük ehtiram, əməyinə verilən müstəsna qiymətdir. O, ekran işinin ərsəyə gəlməsinə kömək göstərənlərə təşəkkürünü yetirib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov rəhbərlik etdiyi qurumun ömrünü-gününü jurnalistika peşəsinə, söz sənətinə sərf etmiş qələm adamları ilə bağlı sənədli filmlər çəkdiyini diqqətə çatdırıb. Bu baxımdan o, Qusar torpağının yetirməsi olan N.Rzayevlə bağlı ekran işinin də kifayət qədər uğurlu alındığına əminliyini ifadə edib. “Belə düşünmək üçün əsaslarımız var. Çünki Nəbi Rzayevin həyatı həqiqətən də örnəkdir. Məhdud fiziki imkanlarına və hər zaman Qusarda - şəhər mühitindən kənarda yaşamasına baxmayaraq, Nəbi bütün stereotipləri alt-üst etmiş şəxsiyyət idi. O, istedadın necə böyük qüvvə olduğunu, heç bir sərhəd tanımadığını isbatlaya bilmişdi. Oçerkləri, məqalələri, esseləri bu dəyərli qələm sahibini respublikaya sevdirmişdi. Neçə-neçə sənət adamları, xalq artistləri, əməkdar artistlər Qusara gələrkən hər zaman Nəbi Rzayevi ziyarət edirdilər. Belə bir ehtiramı jurnalistə sənəti qazandırmışdı. Sənətini hədsiz sevirdi. Nəbi həyatı, yaşamağı da inanılmaz coşqu və ruh yüksəkliyi ilə sevirdi. Hesab edirəm ki, təqdimatına toplaşdığımız bu sənədli filmdə bunu göstərə bilmişik”, deyən Ə.Amaşov tədbirin təşkilinə həssas yanaşıldığı üçün Qusar Rayon İcra Hakimiyyəti rəhbərliyinə təşəkkürünü bildirib.

Çıxışlardan sonra “Yaşamaqdan doymayanlar” sənədli filmi nümayiş olunub. Onu da qeyd edək ki, “Yaşamaqdan doymayanlar” sənədli filminin ssenari müəllifi tanınmış jurnalist və publisist Bəxtiyar Qaraca, rejissoru Kəmalə Mirzəyeva, operatoru Rüstəm Paşadır.

✍ **Zamin Məmmədov,**
**“İki sahil”**

## *Neft Fondu iyundakı valyuta hərraclarında 315,9 milyon dollar satıb*

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən bu ilin iyun ayı ərzində valyuta hərraclarında 315,9 milyon ABŞ dolları məbləğində vəsait satılıb.

Bu barədə AZƏRTAC-a ARDNF-in İctimaiyyətlə əlaqələr departamentindən bildirilib.

## *ABŞ nümayəndəsi:*

## *Bakı sessiyası dünyada mədəni irsin qorunub saxlanılması baxımından mühüm platformadır*




UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası dünyada mədəni irsin qorunub saxlanılması baxımından mühüm platformadır. Sessiyanın açılış mərasimində ölkənizin Birinci vitse-prezidenti, UNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın iştirakı dövlətinizin mədəni və maddi irsə verdiyi dəyərin bariz nümunəsidir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində sessiyada iştirak edən ABŞ-ın Minnesota Universitetinin professoru Artun Çen söyləyib.

Artun Çen deyib ki, bu tədbir iştirakçı dövlətlərin yeni maddi və qeyri-maddi mədəni irs abidələrinin UNESKO-nun siyahısına salınması üçün səmərəli müzakirələr aparmaq və bu istiqamətdə mühüm qərarlar vermək baxımdan əhəmiyyətlidir.

O, həmçinin tədbirin keçirildiyi Bakı Konqres Mərkəzinin öz möhtəşəmliyi ilə onu heyran etdiyini vurğulayıb. Qonaq xalqımızın qonaqpərvərliyi və mehribanlığını da xüsusi qeyd edib.

# “Təmiz Şəhər”in illik hesabatı

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

### “TƏMİZ ŞƏHƏR” AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏHMDARINA VƏ RƏHBƏRLİYİNƏ:

**Rəy**

Biz “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətinin (“Cəmiyyət”) 31 dekabr 2018-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika Məcəlləsinin” (MBESŞ Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**İzahedici paraqraf - Fasiləsizlik prinsipi**

Şərti rəy bildirmədən diqqətinizi maliyyə hesabatlarının 3 saylı Qeydinə cəlb edirik. Həmin Qeyddə Cəmiyyətin 31 dekabr 2018-ci il tarixində başa çatmış il və daha sonrakı illər ərzində təkrarlanan əməliyyat zərərlərinə məruz qaldığına baxmayaraq maliyyə hesabatlarını fasiləsizlik prinsipinə dair ehtimallar tətbiq etməklə hazırladığı açıqlanır. Azərbaycan Respublikasının hökuməti (“Hökumət”) müntəzəm olaraq infrastrukturun tikintisi və təmiri, eləcə də Cəmiyyətin əməliyyat xərcləri üçün dövlət büdcəsindən köçürmələr edir. Cəmiyyət infrastruktur layihələrinin maliyyələşdirilməsi və əməliyyatların davam etdirilməsi üçün dövlət büdcəsindən vəsait almaqda davam edir. Rəhbərlik hesab edir ki, Hökumət cari investisiya layihələrinin maliyyələşdirilməsi ilə yanaşı Cəmiyyətin əməliyyatlarının davam etdirilməsi üçün investisiya ayırmağa davam edəcək.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS (Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanması imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz audit edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlikdə əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

*• Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;*

*• Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;*

*• İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;*

**“TƏMİZ ŞƏHƏR” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR**
**31 DEKABR 2018-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2018-ci il | 31 dekabr 2017-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | | 44,836,334 | 60,824,690 |
| Qeyri-maddi aktivlər | | 312,280 | 377,037 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **45,148,614** | **61,201,727** |
| **Cari aktivlər:** | | | |
| Mal və material ehtiyatları | | 1,513,024 | 1,711,167 |
| Ödənilmiş avanslar | | 164,604 | 2,017,809 |
| Vergi aktivləri | | 15,841,191 | 12,519,617 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 8,939,173 | 1,179,696 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 9,029,346 | 6,168,585 |
| Digər cari aktivlər | | 463,447 | 3,980,845 |
| **Cəmi cari aktivlər** | | **35,950,785** | **27,577,719** |
| **CƏMİ AKTİVLƏR** | | **81,099,399** | **88,779,446** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| **Cari öhdəliklər:** | | | |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | 204,615 | 714,351 |
| Faiz gətirən kreditlər və borc vəsaitləri | | 15,986 | 15,986 |
| **Cəmi cari öhdəliklər** | | **220,601** | **730,337** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **220,601** | **730,337** |
| **KAPİTAL:** | | | |
| Nizamnamə kapitalı | | 9,149,672 | 9,149,672 |
| Xalis dövlət investisiyaları | | 207,614,309 | 182,202,572 |
| Digər investisiyalar | | 58,091,166 | 58,091,166 |
| Yığılmış kəsir | | (193,976,349) | (161,394,301) |
| **CƏMİ KAPİTAL** | | **80,878,798** | **88,049,109** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **81,099,399** | **88,779,446** |

*• Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;*

*• Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.*

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Ekologiya İdarəsi

**Kompleks tədqiqatlar laboratoriyasının multiqazanalizator MX6-014DR211 tipli cihaza olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21009-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.07.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.08.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 118 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı (tələb olunmur):***

Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin 0 %-i məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 0%-i məbləğində tələb olunur.

Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1029________________________(indeks nömrəsi);
Bakı şəhəri________________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu________________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121__________________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**

Mirzəyev İsmayıl ____________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ______(əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 ________(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az__(əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

*Henok Teferra Şaul:*

## Azərbaycan qlobal miqyaslı tədbirlərin keçirilməsi üçün ən müasir infrastruktura malikdir



Ümumdünya İrs Komitəsinin Bakı sessiyası maddi və qeyri-maddi mədəni irsin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi üçün müzakirələr aparmaq baxımından çox əhəmiyyətlidir. Bakıda olduğum müddətdə ölkənizin zəngin tarixi və mədəni irsə malik olduğunu və bu irsin qorunub saxlanılmasına xüsusi diqqət və qayğının olduğunun şahidi oldum.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak edən Efiopiyanın təşkilatdakı daimi nümayəndəliyinin rəhbəri Henok Teferra Şaul səsləndirib.

"Bakı gözəl və cəlbedici şəhərdir. Şəhərdə müasirliklə qədimliyin vəhdət təşkil etməsi bura gələn qonaqları heyran edir. Buradakı memarlıq abidələri çox unikal, zəngin üsluba malikdir. Tədbirdə 2500 qonağın iştirakı ölkənizin dünyada artan nüfuzunu bir daha nümayiş etdirir. Bunun üçün ölkəniz ən müasir infrastruktura malikdir", - deyə Henok Teferra Şaul bildirib.

Efiopiya nümayəndəsi İçərişəhərdə olduğunu və Qız qalası, Şirvanşahlar Saray Kompleksinin və digər qədim memarlıq abidələrinin onu heyran qoyduğunu qeyd edib.

*Firdovsi Umudov:*

## I Avropa Oyunlarında qoyulan standartlar Minskdə uğurla tətbiq edildi

"Minskdə keçirilən II Avropa Oyunlarında Azərbaycan idmançıları 28 (5 qızıl, 10 gümüş, 13 bürünc) medal qazanaraq onuncu pillədə qərarlaşdılar. Zənnimcə, bu nəticəni uğurlu hesab etmək olar. Mən deyərdim ki, bu, hər şeydən əvvəl ölkəmizdə idmana göstərilən diqqət və qayğının təzahürüdür. Buna görə cənab Prezidentimiz İlham Əliyevə, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya bir daha təşəkkürümü bildirirəm". Bu sözləri Azərbaycan millisinin tərkibində Belarusda olmuş Azərbaycan Güləş Federasiyasının (AGF) vitse-prezidenti, "Şöhrət" ordeni, "Tərəqqi" medalı və "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif olunmuş Firdovsi Umudov "Minsk-2019" II Avropa Oyunları ilə bağlı fikirlərini "İki sahil" qəzeti ilə bölüşərkən söylədi.

Minskə idmançılarımızı dəstəkləməyə gələn həmvətənlərimizə xüsusi minnətdarlığını bildirən müsahibimiz, həmçinin vurğuladı ki, bu uğurda Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun, Baş Nazirin birinci müavini Yaqub Eyyubovun, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın, Gənclər və İdman naziri Azad Rəhimovun, Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyevin "Minsk 2019" II Avropa Oyunlarında iştirak edən milli komandamızın üzvləri ilə görüşləri də xüsusi önəm kəsb edib: "Hətta deyərdim ki, məhz bu görüşlərdən sonra idmançılarımız yarışlara, əgər belə demək mümkünsə, daha yaxşı köklləndilər".

Minskdə müşahidələrinə əsasən, Azərbaycanın idman ölkəsi kimi tanındığının bir daha şahidi olduğunu bildirən müsahibimiz, qeyd etdi ki, bütün bunlar onda xoş ovqat yaradıb: "Orada olduğum müddətdə xarici ölkə idmançılarının 2015-ci ildə Bakıda keçirilmiş I Avropa Oyunları ilə bağlı çox xoş xatirələrini də dinlədim. Görünür, I Avropa Oyunları onların yaddaşına əbədi həkk olunub. II Avropa Oyunlarını da təşkilatçılıq baxımından yüksək dəyərləndirmək olar. Amma bir məsələni xüsusi vurğulamaq istərdim: I Avropa Oyunlarında qoyulan standartlar Minskdə uğurla tətbiq edildi. Yeri gəlmişkən, Minskdə təşkilati işlərdə azərbaycanlı mütəxəssislər də yaxından iştirak edirlər. Bu isə həm də o deməkdir ki, artıq ölkəmizdə dünyanın mötəbər idman yarışlarının təşkilati işlərində də çalışan peşəkar mütəxəssislərimiz yetişiblər".

Daha sonra AGF-nin vitse-prezidenti kişilərdən ibarət sərbəst güləşçilərimizin uğurlu çıxışlarından söz açdı: "Bu mötəbər yarışda sərbəst güləşçilərimiz bütün altı çəkidə medal qazanmaq şansı əldə etdilər ki, bunlardan beşində fəxri kürsüyə çıxdılar. Belə ki, sərbəst güləşçilərimizdən Mahir Əmiraslanov (57 kq) və Hacı Əliyev (65 kq) qızıl, Nurməhəmməd Hacıyev (97 kq) gümüş, Hacımurad Hacıyev (74 kq) və Camaləddin Məhəmmədov (125 kq) bürünc medal əldə etdilər. Onu da deyim ki, Nurməhəmməd Hacıyev yarımfinalda zədələndiyi üçün onun finaldakı rəqibinə texniki qələbə verilib. Sözün düzü, onun zədələnməsi məni çox məyus etdi. Amma nə etmək olar? Bu, idmandır. Qadınlardan ibarət yığmamız isə 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazandı".



Müsahibimizin sözlərinə görə, ölkəmizə ilk qızıl medal qazandıran Mahir Əmiraslanovun yarımfinalda dünya çempionuna qalib gəlməsi, Hacı Əliyevin finaladək, daha doğrusu, gün ərzində iki erməni idmançısı üzərində qələbə sonra əvvələr uduzduğu Vladimir Xinçeqaşvilini məğlub etməsi onu çox sevindirib: "Fikrimcə, Mahir Əmiraslanovun 26 İyun - Silahlı Qüvvələr Günündə qızıl medal qazanması bütün hərbiçilərimizə gözəl bir hədiyyə oldu".

F.Umudovun fikrincə, AGF-nin rəhbəri Namiq Əliyevin də belə nəticələrin əldə olunmasında xidmətləri vardır: "O, güləşçilərimiz üçün hər bir şəraiti yaradıb. Bu şəraitin qarşılığında nəticə əldə olunmaması mümkün deyil. Onu da deyim ki, bu gün AGF-nin bazası dünyada ən yaxşılardandır".

Həmsöhbətimizin sözlərinə görə, növbəti hədəfləri sentyabrda Qazaxıstanın paytaxtı Nur-Sultanda keçiriləcək dünya çempionatıdır: "Burada bir məsələyə də toxunmaq istərdim. Avropa Oyunları elə bu dünya çempionatına hazırlığın bir parçası idi desəm, yanılmaram. Odur ki, II Avropa Oyunlarına, həm də qarşıdakı mundial öncəsi yarış kimi yanaşırıq. Amma indidən proqnoz vermək istəməzdim. Ümumiyyətlə, bunu xoşlamıram. Lakin onu deyə bilərəm ki, növbəti yarışda da sərbəst güləşçilərimiz bayrağımızı yüksəyə qaldıracaq, himnimizi səsləndirəcəklər".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Pozitiv və neqativ enerji sağlamlığımıza necə təsir edir?

Müasir dövrdə belə bir fikir formalaşıb ki, insanın şəfa tapması yalnız iynə-dərmanla mümkündür. Bir çox hallarda bu cür müalicə tam sağlamlığa nail olmağa imkan verməsə də, digər yanaşmalar adətən rədd edilir. Müalicə imkanlarını bu cür məhdudlaşdıran əsas səbəb insanın mahiyyətinin düzgün nəzərdən keçirilməməsidir.

Ənənəvi tibb insanın yalnız fiziki bədənini müalicə obyekti kimi qəbul edir və müxtəlif kimyəvi preparatlarla müalicə xəstəliyi aradan qaldırmanın yeganə üsulu hesab edilir. Halbuki insan bir neçə enerji təbəqəsindən və materiyadan ibarət mürəkkəb quruluşa malikdir.

Lakin buna baxmayaraq, artıq bir çox peşəkar həkimlər insanın psixoloji vəziyyətinin, energetik aurasının onun sağlamlığına bilavasitə təsiri olduğunu qəbul edir və öz müalicə taktikalarında ilk növbədə həmin sahələrdə neqativ halların aradan qaldırılmasına əhəmiyyət verirlər.

Enerji-terapiyanın əhəmiyyətindən danışarkən bir çox hallarda, xüsusən də kritik vəziyyətlərdə, məhz dərmanların tətbiqinin vacib olduğunu, təbii ki, inkar etmək olmaz. Lakin orqanizmi kritik vəziyyətdən çıxartdıqdan sonra sağlamlığı tam bərpa etmək üçün daha geniş terapiya üsullarına müraciət etmək əhəmiyyətlidir.



Əslində pozitiv energetikanın insanın şəfa tapmasında rolu həmişə qəbul edilib. Xəstənin həkimə etimad göstərməsinin və sağalacağına inamının olmasının müalicədə həlledici rol oynaması hər zaman həkimlər tərəfindən danılmaz həqiqət hesab olunub.

İnsanın energetikası ideal təmiz vəziyyətdə olduğu zaman onda enerjinin hərəkəti müntəzəm və maneəsiz baş verir. Lakin daxildə sıx neqativ əmələ gəldiyi zaman o, kanalları tutur. Həyat enerjisinin normal hərəkətini ləngidərək, sonradan çoxlu fiziki dəyişikliklər törədir ki, bunlar da xəstəliyə səbəb olur. Zərərli maneələrin aradan qaldırılması ilə orqanizm dərhal normaya düşür.

Bütün bunların izahını yalnız bioenergetika nöqteyi-nəzərindən vermək olar. Çünki bir çox hallarda xəstəliyə səbəb daxili energetik dəyişikliklər olur və insan öz aurasını neqativ enerji yığınlarından təmizləməklə şəfa tapır.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# Gümrah qalmaq üçün bunları edək



Qaçış, sürətli yerimə gündəlik həyatımızda mütləq yer tutmalı olan sadə hərəkətlərin içərisində ən məşhurlarıdır. Hər kəs həyatının hər hansısa bir mərhələsində bu məşğuliyyətə mütləq şəkildə yer verir. Qaçış elə bir idman növüdür ki, onu etmək üçün bahalı idman geyimlərinə, xüsusi zallara ehtiyac yoxdur. Gündəlik müntəzəm olaraq qaçışla məşğul olan və ya sürətli yeriyən biri bunun orqanizmində hansı müsbət irəliləyişlərə səbəb olduğunu rahatca deyə bilər. Bütün həkimlər hər zaman adlarını çəkdiyimiz bu məşğuliyyətlərin sağlamlığımız üçün nə qədər faydalı və gərəkli olduğunu hər zaman vurğulayırlar. Qaçış idman növü ilə məşğul olmağı sevənlər bunu əyləncəli hala da gətirib, həyata keçirə bilirlər. Məsələn, məktəblərdə, müxtəlif sosial təbliğat kampaniyalarında, yarışlarda, marafonlarda və s. qaçanlar və ya yürüşlərə qatılanlar eyni zamanda, bunun təbliği ilə də məşğuldurlar.

Bəs həqiqətən qaçış və ya sürətli yürüşün bədənimizə nə kimi təsirləri var? Sualın cavablarını mütəxəssislərdən öyrəndik. Həkim-kardioloq Mahir Osmanov qeyd edir ki, bu sadə hərəkətlər həm ürək sağlamlığımıza, həm də fiziki funksiyalarımızın yaxşılaşdırılmasına inanılmaz dərəcədə kömək edir. Əgər bunları qruplaşdırsaq belə bir nəticə ortaya çıxır.

*1. **Sümüklərin gücləndirilməsi***
*2. **Sağlıqlı şəkildə çəki itirmək və ya çəkini stabil saxlamaq***
*3. **Ürək-damar sisteminin yaxşı çalışması***
*4. **Əzələ sistemimizin möhkəmləndirilməsi.***

Mütəxəssislər onu da qeyd edirlər ki, bununla məşğul olarkən özümüzə hədəf götürməli və nəticədən nə almaq istədiyimizi düşünməliyik. Diqqət etməli olduğumuz məsələlər bununla bitmir. Əgər formada qalmaq üçün qaçırıqsa və bu mövzuda qeyri-professionalıqsa gündəlik sadəcə sürətli yerimə ilə başlamalıyıq. Bu bir neçə ay davam etməlidir.

**Ümumi gümrahlıq.** Gümrahlığınızı artırmaq üçün qaçma ilə yanaşı üzmə və ya komanda idman növləri ( futbol, voleybol, basketbol və s.) ilə də məşğul ola bilərsiz.

**Çəki itirmək.** Əgər çəki itirmək istəyirsinizsə dietalarınızı bol miqdarda meyvə, tərəvəz, yağsız ət, kəpəkli taxıllar və ya az yağlı süd məhsulları ilə zənginləşdirməyə çalışın. Əlbəttə, yağları, paketlərdəki hazır qidaları, alkoqollu içkiləri və şirniyyatı da kəsməklə, gündə müntəzəm olaraq yürüş və ya qaçışla birlikdə istədiyiniz çəkiyə enə bilərsiniz.

Dostlarınızla və ya sizə söhbəti xoş olan kəslərlə bu məşğuliyyətinizi sevimli hala gətirə bilərsiniz. Bu halda həm zamanın necə gəlib keçdiyini anlamayacaq, həm də daha rahat olacaqsınız.

Bütün bu sadalananlar eyni zamanda, sağlam həyat deməkdir. Sadəcə bir dəfə gələ bildiyimiz dünyanı rahat və sağlam yaşamaq hər birimizin haqqıdır. Bunun üçünsə özümüz əmək sərf etməliyik.

**Nilufər Mustafaqızı,**
***"İki sahil"***

# Avstraliyada yeni hörümçək tapıldı



Avstraliyada bioloqlar yeni növ hörümçək aşkar ediblər.

Milli.Az xəbər verir ki, hörümçəyin qeyri-adi görünüşü bioloqlara bu il vəfat etmiş modelyer Karl Lagerfeldi xatırladıb.

Qeyd olunur ki, hörümçəyin göy-qara gözləri modelyerin daim taxdığı gözlüyə, ayaqlarının ucundakı ləkələr isə qara əlcəklərə bənzəyir.

Bunu əsas gətirərək bioloqlar yeni tapılan hörümçək növünə "Jotus karllagerfeldi" adını veriblər.

Yeni hörümçəklər 4-5 millimetr uzunluğundadır.

# "Liverpul" hücumçusunu satdı



İngiltərənin "Sauthempton" klubu ötən mövsüm "Liverpul"dan icarəyə götürdüyü Denni İnqzin transfer hüququna yiyələnib.

Milli.Az klubun saytına istinadən xəbər verir ki, 26 yaşlı forvardla 2022-ci ilə kimi müqavilə imzalanıb. Bu keçid üçün "qırmızılar"a 20 milyon funt-sterlinq təzminat ödənilib.

İnqz "Liverpul"a 2015-ci ildə "Börnli"dən transfer olunmuşdu.

**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın Neft Kəmərləri İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Qaz İxrac" İdarəsinin Tikinti üzrə rəis müavini Hikmət Həsənova, qayınanası

**Gövhər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 03.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 7861
İndeks: 0151, Sifariş: 2177

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.